**Prezident İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib**



Bax 2

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi təbrik edib**



Bax3

**"Keçirilən exit-polların nəticələri partiyamızın qələbə çaldığını göstərir"**



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 026 (5991) 10 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# AZƏRBAYCANDA SEÇKİLƏR AZAD VƏ DEMOKRATİK ŞƏKİLDƏ BAŞA ÇATDI




Bax 8

## "AJF Associates İnc." şirkəti seçkilərdə apardığı "exit-poll"un nəticələrini açıqlayıb




Bax 5

Amerika Birləşmiş Ştatlarının "AJF Associates İnc." şirkəti növbədənkənar parlament seçkilərində apardığı "exit-poll"un nəticələrini açıqlayıb.

## Xarici parlamentarilər: "Seçkilərdə heç bir problem və maneələrlə qarşılaşmadıq"



Bax 7

*"Pulman" otelində xarici müşahidəçilərin 9 fevral 2020-cildə keçirilmiş parlament seçkiləri ilə bağlı mətbuat konfransı keçirilib. SİA xəbər verir ki, mətbuat konfransında çıxış edən müşahidəçilər bildiriblər ki, onların Bakıda olmalarının səbəbi parlament seçkilərini müşahidə etməkdən ibarət olub.*

## Türkiyə KİV-ləri Azərbaycanda keçirilən seçkiləri geniş işıqlandırır



Bax 11

***Türkiyənin aparıcı kütləvi informasiya vasitələri fevralın 9-da Azərbaycanda keçirilən Milli Məclisə seçkilərlə bağlı geniş materiallar yayırlar. Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin səsvermədə iştirakı öz əksini tapır.***

## "Parlament seçkilərinə ictimai maraq böyük idi"



Bu gün Milli Məclisə seçkilər keçirilib. 125 dairənin 5573 seçki məntəqəsi seçicilərin səs verməsi üçün hazır vəziyyətə gətirilmişdi. SİA-nın məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. M.Pənahov bildirib ki, seçkilərə həm Azərbaycan ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət tərəfindən böyük maraq göstərildi.

Bax 3

## İordaniyalı müşahidəçi: Məntəqələrdə seçicilər üçün hər şeyin yüksək səviyyədə təşkil edildiyinin şahidi oldum



Bu gün Azərbaycanda keçirilən seçkilər zamanı apardığım müşahidələr göstərir ki, hər şey normal vəziyyətdədir. Müxtəlif ölkələrdən müşahidəçilərin, jurnalistlərin prosesi izləməsi və işıqlandırması seçkilərin şəffaf keçməsinin...

Bax 11

**İsrailli müşahidəçi: "Seçkilər şəffaf və demokratik şəraitdə keçdi"**



Bax 7

**Əli Kərimli - gerçək avantüraçılıq nümunəsi!**



Bax 14

**"Barselona" yeni hücumçu axtarır**



Bax 16

# Prezident İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib











Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilir. AZƏRTAC xəbər verir ki, səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs vermək üçün bu seçki məntəqəsinə gəldilər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər. Qeyd edək ki, Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 574 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 20 namizəd mübarizə aparır.



# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi təbrik edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik edib, yeni parlamentə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə edib və yaxın zamanlarda yeni təmasların davam etdirilməsi haqqında qərara gəliblər.

# “Parlament seçkilərinə ictimai maraq böyük idi”




Bu gün Milli Məclisə seçkilər keçirilib. 125 dairənin 5573 seçki məntəqəsi seçicilərin səs verməsi üçün hazır vəziyyətə gətirilmişdi. SİA-nın məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. M.Pənahov bildirib ki, seçkilərə həm Azərbaycan ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət tərəfindən böyük maraq göstərildi. MSK sədri vurğulayıb ki, MSK bütün Azərbaycan vətəndaşlarının bu prosesə qoşulması üçün lazımi addımları atıb: “Mərkəzi seçki Komissiyasına daxil olan şikayətlərin və müraciətlərin sayı xeyli azalıb. Parlament seçkiləri ilə bağlı cəmisi 47 müraciət daxil olub. Namizdlər üçün lazımi şərait yaradılıb və onlar sosial şəbəkələrin də imkanlarından geniş istifadə edib. MSK namizədlərin sosial şəbəkələrdəki fəaliyyətinə nəzarət etməyib. Hesab edirəm ki, biz doğru mövqedə idik, çünki biz nə ictimaiyyətdən, nə də beynəlxalq qrumlardan heç bir irad almadıq, əksinə onlar bunu alqışlayıblar. Namizədər fəallıq göstərərək seçiciləri ilə aktiv görüşlər keçirib”.

M.Pənahov bildirib ki, parlament seçkiləri ilə bağlı sosial şəbəkələrdə olan bütün məqamlar çox ciddi şəkildə araşdırılacaq. Onun bildirdiyinə görə, kimdəsə hanısa fakt varsa gecikdirmədən MSK-ya təqdim etsin: “Mən söz verirəm ki, addımlarımız çox ciddi olacaq. Heç kimin Azərbaycanda parlament seçkilərinin üzərinə kölgə salmağa haqqı yoxdur”.

M.Pənahov bildirib ki, Bütün müşahidəçilər üçün seçkiləri izləmək üçün bütün şərat yaradılmışdı: “Lakin müşahidəçilər tərəfindən bəzi xoşagəlməz halların olduğu qeyd olunub. Biz nöqsanlara yol verən aşağı seçki komissiyalarını ciddi şəkildə cəzalandıracağıq. Biz bu qədər maarifləndirmə işləri aparırıq, tədbirlər görürük və aşağı seçki komissiyaları öz vəzifəsini ciddi şəkildə yerinə yetirilməlidir”.

# “Keçirilən exit-polların nəticələri partiyamızın qələbə çaldığını göstərir”



“Növbədənkənar parlament seçkiləri başa çatdı. Keçirilən exit-polların nəticələri partiyamızın qələbə çaldığını göstərir”. SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov özünün “Facebook” səhifəsində yazıb. Ə.Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının növbəti qələbəsi ilə partiyanın üzvlərini təbrik edə bilər: “Qalib gəlmiş namizədlərimizi ürəkdən təbrik edirəm. Partiyamızın möhtəşəm qələbəsinə böyük töhfə vermiş çoxsaylı könüllülərimizə ayrıca təşəkkürümüzü bildiririk. Partiyamıza və onun namizədlərinə, Prezidentimizin siyasətinə səs vermiş bütün seçicilərimizə minnətdarıq”. Qeyd ed?k ki, fevralın 9-da Az?rbaycanda növb?d?nk?nar parlament seçkil?ri keçirilib. Seçkilərdə 1314 nəfər namizəd iştirak edib. Namizədlərdən 246 nəfəri 19 siyasi partiyanın təmsilçisidir, 1057 nəfəri fərdi qaydada namizədliyini irəli sürüb, 11 nəfərin namizədliyi isə təşəbbüs qrupu tərəfindən irəli sürülüb. Seçki günü ərzində Azərbaycanda 125 dairə üzrə 5426 daimi seçki məntəqəsi fəaliyyət göstərib. Seçkilərin gedişini 883 beynəlxalq və 77 790 yerli müşahidəçi izləyib. Yerli müşahidəçilərdən 35 152-i siyasi partiyaların müşahidəçiləridir. Beynəlxalq müşahidəçilər 58 ölkəni və 59 təşkilatı təmsil edib.

# YAP-ın seçkilərlə bağlı məlumatı



Azərbaycan Respublikasının Milli Məclisinə 9 fevral 2020-ci ildə keçirilmiş növbədənkənar seçkilər başa çatmışdır. SİA-nın verdiyi məlumata görə, seçkiləri izləyən çoxsaylı beynəlxalq və yerli müşahidəçilərin rəyi seçki prosesinin azad, demokratik, şəffaf şəraitdə ölkənin qanunvericiliyinə tam uyğun olaraq keçirildiyini sübuta yetirir. Seçkilərdə 1300-dən yuxarı namizədin iştirak etməsi deputat mandatı uğrunda mübarizənin yüksək rəqabət şəraitində aparılmasından xəbər verir.

“Daha güclü Azərbaycan naminə” çağırışı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyası 123 dairədə qeydiyyatdan keçmiş namizədi ilə geniş və əhatəli seçki kampaniyası aparmağa müvəffəq olmuşdur. Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalq arasında yüksək şəxsi nüfuzu, həyata keçirdiyi siyasətin möhtəşəm nəticələri, ölkə iqtisadiyyatının sürətli inkişafı, əhalinin rifahının yüksəlməsi, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsi, uğurla davam edən genişmiqyaslı islahatlar Yeni Azərbaycan Partiyasının sözügedən seçkilərdə istinad etdiyi əsəs məqamlar olmuşdur. Qeyd etmək yerinə düşər ki, seçkilərə şəxsi keyfiyyətləri sayəsində insanlar arasında böyük nüfuz qazanmış layiqli namizədləri ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki kampaniyasının uğurla həyata keçirilməsinə partiyanın çoxsaylı üzvləri və könüllüləri də böyük töhvə vermişlər.

Seçkilərin gedişatını izləyən bir sıra mötəbər beynəlxalq sorğu mərkəzlərinin (exit-poll) verdikləri açıqlamalar Yeni Azərbaycan Partiyasının Milli Məclisə növbədənkənar seçkilərdə əhəmiyyətli uğurlar qazandığını söyləməyə əsas verir.

Yeni Azərbaycan Partiyası bu seçkilərdə səsvermənin gedişini özünün çoxminli müşahidəçiləri ilə geniş şəkildə izləmişdir. Onların verdiyi məlumatlara görə seçkilərə qatılmış bəzi namizədlər və onların tərəfdaşları səsvermə prosesini pozmağa, müxtəlif təxribatlarla demokratik və azad keçirilən seçkilərə kölgə salmağa cəhdlər göstərmişlər.

Yeni Azərbaycan Partiyası bu seçkilərdə onun irəli sürdüyü namizədlərə və nəticə etibarilə Azərbaycan Respublikasının Prezidentinin siyasətinə səs vermiş vətəndaşlarımıza dərin minnətdarlığını ifadə edir və əmin olduğunu bildirir ki, Milli Məclisin yeni tərkibi ölkəmizdə həyata keçirilən islahatlara öz dəyərli töhvəsini verəcəkdir.

# Mixail Finkel: “Azərbaycanın seçki sistemi İsraildəkindən daha mütərəqqi və etibarlıdır”



Azərbaycanda parlament seçkiləri məndə xoş təəssürat oyatdı. Bu seçkilər bütün beynəlxalq standartlara uyğundur. Seçkilər demokratik, çoxpartiyalı sistem transparentdir. Təkrar səsvermələrin qarşısını almaq üçün seçicilərin barmaq izlərinin götürülməsi məni əməllibaşlı təccübləndirdi. Deyə bilərəm ki, sizdə səsvermə sistemi İsraildəkindən daha mütərəqqi və etibarlıdır.

Bu sözləri Azərbaycanda parlament seçkilərini müstəqil müşahidə edən tanınmış politoloq, hüquqşünas alim, beynəlxalq münasibətlər sahəsində ekspert Mixail Finkel söyləyib. O deyib: “Sizdəki bülletenlər eynən İsraildə olduğu kimidir, səsvermə sistemi də eynən bu cürdür. İstirahət günü olmasına, soyuq və küləkli hava şəraitinə baxmayaraq vətəndaşların yüksək fəallıq nümayiş etdirməsi, müxtəlif yaşda insanların seçki məntəqələrinə axışması məndə böyük təəssürat oyatdı. Diqqətəlayiq məqamlardan biri də budur ki, gənclər səs verərkən ölkənin gələcəyinin qurulmasında iştirak etdiklərini dərindən hiss edirlər”.

# ATƏT müşahidəçisi: “Seçkidə neqativ hal qeydə alınmayıb”



ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) nümayəndələri 81 saylı Beyləqan seçki dairəsinin 4 saylı seçki məntəqəsində seçkiləri müşahidə ediblər. ATƏT DTİHB müşahidəçisi Halogh Nora Beyləqanda AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində seçki prosesində neqativ halın qeydə alınmadığını bildirib: “Hər şey yaxşıdır, neqativ hal qeydə alınmayıb. Hər şey qaydasındadır”. Qurumun digər müşahidəçisi Pavel Kuznatsov da seçicilərin aktivliyinin normal olduğunu deyib.

## “Şəffaflığın əleyhinə heç bir hadisə müşahidə etmədik” - AŞ-ın DİM üzrə prezidenti



“Pulman” oteldə xarici müşahidəçilərin 9 fevral 2020-ci ildə keçirilmiş parlament seçkiləri prosesi ilə bağlı media üçün konfrası keçirilib. SİA xəbər verir ki, çıxış edən Avropa Şurasının Demokratiya və İnsan Məsələləri (AŞ DİM) üzrə Avropa Şurasının prezidenti Yanus Niedzvieçkinin bildirdiyinə görə, nümayəndələr seçki məntəqələrində sonadək müşahidələrini davam etdiriblər: “Mən Avropa daxil olmaqla müxtəlif ölkələrdə parlament seçkilərini müşahidə etmişəm”, deyə qeyd edən müşahidəçi əlavə edib ki, Azərbaycanda keçirilən seçkilər həm qanunvericilik, həm də texniki cəhətdən yaxşı təşkil olunub: “Heç bir qanun pozuntusu müşahidə etmədik. Hətta müxalifət partiyasından olan biri dedi ki, hər hansı qanun pozuntusu müşahidə etməmişəm. Müxalifətçinin bunu deməsi seçkinin şəffaflığının göstəricisidir”.

Çexiya Parlamentinin üzvü Vera Prohazkova da həmkarının fikirləri ilə razı olduğunu bildirib və qeyd edib ki, bu gün 3 məntəqədə olublar. “Seçkilər yüksək demokratik şəraitdə aparılıb. Məntəqələrdə görüşdüyümüz insanlar da problem olması ilə bağlı irad bildirmədilər”, xanım parlamentari bildirib.

Çexiya Parlamentinin digər üzvü Yaroslav Dubrava bu gün olduqları məntəqələrdə seçkinin yüksək təşkil olunduğunu bildirib: “İnsanlar problem olmadığını bildirdilər. Məntəqələrdə olduğumuz müddətdə şəffaflığın əleyhinə heç bir hadisə müşahidə etmədik”.

İtaliya Parlamentinin üzvü Ettore Lixeri isə vurğulayıb ki, Azərbaycan Avropa İttifaqı arasında əlaqələr getdikcə inkişaf edir. O, qeyd edib ki, Azərbaycan müxtəlif mədəniyyətlərin balanslaşdırılması istiqamətində işlər görür. “Azərbaycanda inkişaf meyilləri var. Dinindən, irqindən asılı olmayaraq hər kəsə uğurlar arzu edirəm”, deyə italiyalı müşahidəçi fikirlərini sona çatdırıb.

***Rövşən RƏSULOV***

## Braziliyalı müşahidəçilər Azərbaycan xalqını təbrik edib




***Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə edən Braziliyanın nümayəndə heyəti jurnalistlərə açıqlama verib. SİA xəbər verir ki, Braziliyanın nümayəndə heyəti dünən keçirilən parlament seçkiləri barədə müsbət fikir və rəy bildirib.***

Braziliyalı müşahidəçi Antonio Anastasiya qeyd edib ki, o Azərbaycan-Braziliya dostluq qrupunun üzvüdür və Azərbaycana gəldiyi üçün çox məmnundur. Dostluq qrupunun üzvü kimi Azərbaycanda seçkiləri müşahidə etdiyini bildirən müşahidəçi seçkilərin şəffaf və demokratik şəraitdə keçdiyini vurğulayıb.

Braziliya nümayəndə heyətinin digər üzvü Klaudio Kajado da Azərbaycanda keçirilən parlament seçkiləri barədə müsbət fikirlər səsləndirib. Binəqədi və Qaradağ seçki məntəqələrində olduğunu deyən müşahidəçi hər şeyin normal keçdiyini, burada demokratiyanın şahidi olduğunu bildirib. Sonda, Braziliyanın hər iki nümayəndəsi Azərbaycan xalqını demokratik seçkilər, demokratiyanın qələbəsi münasibətilə təbrik edib.

## Pakistan nümayəndə heyəti MSK-nın fəaliyyətindən razıdır



İslamabad Qlobal Araşdırmalar Mərkəzi dünənki seçkilərlə bağlı jurnalistlərə açıqlama verib. SİA xəbər verir ki, Pakistandan gələn və seçkini müşahidə edən nümayəndə heyəti dünənki seçki barədə rəyini açıqlayıb.

Qeyd olunub ki, onlar Azərbaycana seçkini müşahidə etmək üçün gəliblər. Bir sıra görüşlər keçiriblər. Seçkiləri də izləyiblər. Azərbaycanı özləri üçün 2-ci doğma ölkə hesab edən Pakistan nümayəndə heyəti Pakistanı Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğunu da xatırladıb. Həmçinin qeyd olunub ki, nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasının fəaliyyətindən də razıdır. Vurğulanıb ki, seçki prosesi yüksək səviyyədə keçirilib. Pakistan nümayəndə heyəti Milli Məclisə seçiləcək nümayəndələrin öz vətəni Azərbaycan üçün töhfələr verəcəyinə əminlik ifadə edib.

***İnam Hacıyev***

## Fransalı müşahidəçi: “Seçkilər Azərbaycan xalqının iradəsini ifadə etdi”




“Mən ümumilikdə 20 seçki məntəqəsində seçki prosesini izlədim. Seçki bitdikdən sonra səslərin sayılmasında da iştirak erdim”. Bunu parlament seçkilərini müşahidə etmis Fransanın xarici əlaqələr və müdafiə məsələləri üzrə vitse-prezident Joel Qrelyo deyib. Onun sözlərinə görə, seçicilərin barmaqlarına xüsusi boyaların vurulması yenikdir ki, bu da bir şəxsin ikinci dəfə səs verməsinin qarsını ala bilir: “Belə hal bəzi ölkələr üçün numunə ola bilər. Səslərin sayılmasında aşkarlıq numayis etdirildi. Ümumilikdə, seçkiləri müsbət qiymətləndirmək olar”. Senator onu da bildirib ki, Bakı gözəl şəhərdir: “Burada tarixi memarlıq nümunələri var, insanlar isə mehriban və gülərüzdürlər”.

***İnam HACIYEV***

## Macarıstanlı jurnalist: “Gənclər seçki prosesinə pozitiv yanaşırlar”



Macarıstanlı jurnalist Peter Dunayi parlament seçkilərində sərbəst fərdi müşahidəçi qismində iştirak edib və azərbaycanlı mətbuat nümayəndələri ilə təəssüratlarını bölüşüb. SİA-nın məlumatına görə, P.Dunayi bildirib ki, seçkilərlə bağlı araşdırma-məqalə hazırlamaq üçün Azərbaycana gəlib.

“Təəssüratlarım yaxşıdır. 4 məntəqədə oldum. Seçici axını vardı. Onlardan soruşduqda seçkiyə gəlməyi borcları hesab edirdilər. Xüsusilə gənclər prosesə pozitiv yanaşırdılar. Dəyişikliklər gözləyirlər. Regionun digər ölkələri ilə müqayisədə Azərbaycanda iqtisadi artım əhəmiyyətli dərəcədə üstündür. Təkcə nefti nəzərdə tutmuram. Ölkəniz açıq ölkədir. Geniş təcrübə var. Gənc nəsil üçün üstünlüklər çoxdur. İngiliscə kifayət qədər yaxşı danışırsınız. Bu vacib məsələdir. Azərbaycanla Avropa seçki sistemi arasında heç bir fərq yoxdur”. Jurnalist məqaləsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunmasından yazacağını da deyib: “Cocuqmərcanlıda səfərdə oldum. Azərbaycan ordusu tərəfindən 2016-cı ildə işğaldan azad olunduğunu da bilirəm və bu haqda da yazacağam”.

# "AJF Associates İnc." şirkəti seçkilərdə apardığı "exit-poll"un nəticələrini açıqlayıb

Amerika Birləşmiş Ştatlarının "AJF Associates İnc." şirkəti növbədənkənar parlament seçkilərində apardığı "exit-poll"un nəticələrini açıqlayıb.

Trend-in məlumatına görə, şirkətin vitse-prezidenti George Birubaum bildirib ki, "AJF Associates İnc." Azərbaycanda 5-ci "exit-poll" keçirir:

"1053 məntəqədə "exit-poll" keçirdik. 2106 nəfərdən münasibət aldıq. 47 sahə üzrə nəzarətçiyə nəticə təqdim edilib. Səhər 11, 14 və 17-də nəticələr təqdim olunub. Nəticələr dərhal Nyu-Yorka ötürülüb".

G.Birubaum qeyd edib ki, proses zamanı ümumilikdə 76 min olmaqla, təxminən hər dairədə 640-650 müsahibə aparılıb. Hər dairə üzrə xəta həddi 3,6 - 3,9 faiz götürülüb:




"İlkin nəticələrə görə, seçkilərdə Yeni Azərbaycan Partiyası 69 yer, müstəqil namizədlər 41 yer, Vahid Azərbaycan Partiyası 3 yer, Demokratik İslahatlar Partiyası 1, Böyük Quruluş Partiyası 1, Bütöv Xalq Cəbhəsi Partiyası 1 yer, Azərbaycan Demokratik Partiyası 1 yer, Vətəndaş Həmrəyliyi Partiyası 3 yer qazanıb".

| Seçki dairəsi | Namizəd | AJF&Associates İnc. (ABŞ) |
|---|---|---|
| 8 Binəqədi birinci | Quliyev Azay | 46,2 % |
| 9 Binəqədi ikinci | Qafarov Kəmaləddin | 62,7 % |
| 10 Binəqədi üçüncü | Musayev Madər | 58,1% |
| 11 Qaradağ seçki | Hüseynov Aydın | 57,4% |
| 12 Qaradağ-Binəqədi-Yasamal | Xasayeva Səbinə | 50,9% |
| 13 Xəzər-Pirallahı | Əliyev Rauf | 46,9% |
| 14 Xəzər | Məmmədov Soltan | 52,6% |
| 15 Yasamal birinci | Quliyev Ülvi | 47,1% |
| 16 Yasamal ikinci | Qədirli Erkin | 40,8% |
| 17 Yasamal üçüncü | Allahverdiyev Elnur | 56,9% |
| 18 Nərimanov-Nizami | Musabəyov Rasim | 40,9% |
| 19 Nərimanov birinci | Məmmədov Hikmət | 45,7% |
| 20 Nərimanov ikinci | Əliyev Adil | 60,9% |
| 21 Nəsimi birinci | İbrahimqızı Məlahət | 61,1% |
| 22 Nəsimi ikinci | Mollazadə Asim | 47,1% |
| 23 Nəsimi-Səbail | Səmədzadə Ziyad | 49,0% |
| 24 Nizami birinci | Nurullayeva Könül | 42,3% |
| 25 Nizami ikinci | Vəliyeva Sədaqət | 62,1% |
| 26 Sabunçu birinci | Fazil Mustafa | 45,7% |
| 27 Sabunçu ikinci | Salahzadə Əliabbas | 57,1% |
| 28 Sabunçu üçüncü | Quliyev Eldar | 41,8% |
| 29 Səbail | Nigar Arpadarai | 42,5% |
| 30 Suraxanı birinci | Fətəliyeva Sevinc | 60,9% |
| 31 Suraxanı ikinci | Əliyev Etibar | 41,7% |
| 32 Suraxanı üçüncü | Həsənova Afət | 64,1% |
| 33 Xətai birinci | Mirələmov Hüseynbala | 57,1% |
| 34 Xətai ikinci | Zabelin Mixail | 47,3% |
| 35 Xətai üçüncü | Abbasov Rauf Arif | 41,8% |
| 36 Xətai dördüncü | Həsənquliyev Qüdrət | 42,9% |
| 37 Nizami birinci (Gəncə) | Kərimzadə Pərvin | 44,0% |
| 38 Nizami ikinci (Gəncə | Həmzəyev Naqif | 45,2% |
| 39 Kəpəz bicini (Gəncə) | Cəfərov Müşfiq | 46,4% |
| 40 Kəpəz ikinci (Gəncə) | Quliyev Musa | 41,3% |
| 41 Sumqayıt birinci | Hüseynova Hicran | 52,1% |
| 42 Sumqayıt ikinci | Mirkişili Tahir | 54,0% |
| 43 Sumqayıt üçüncü | Hacıyev Emin | 53,8% |
| 44 Sumqayıt-Xızı | Məmmədli Müşfiq | 54,1% |
| 45 Abşeron | Əsədov Oqtay | 63,8% |
| 46 Şirvan | İltizam Yusifov | 49,8% |
| 47 Mingəçevir | Mirzəzadə Aydın | 51,1% |
| 48 Yevlax | Məmmədli İlham | 52,0% |
| 49 Yevlax-Mingəçevir | Hüseynli Əli | 57,5% |
| 50 Abşeron-Qobustan | Şahin Seyidzadə | 43,1% |

| | | |
|---|---|---|
| 51 Qusar | Badamov Azər | 52,7% |
| 52 Quba | Əhmədov Vahid | 41,5% |
| 53 Quba-Qusar | Rafailov Anatoliy | 43,0% |
| 54 Şaban-Siyəzən | Qurbanov Sadiq Haqverdi | 50,5% |
| 55 Xaçmaz şəhər | Səlimov Eldəniz Adil | 57,9% |
| 56 Xaçmaz kənd | Mikayılova Sevil Əlirazi | 44,4% |
| 57 Kürdəmir | Ağazadə Əminə | 50,8% |
| 58 Hacıqabul-Kürdəmir | Hüseynov Rəfael | 52,2% |
| 59 Salyan | Əhmədova Jalə | 59,2% |
| 60 Salyan-Neftçala | Ağamalı Fəzail | 49,3% |
| 61 Neftçala | Rüstəmxanlı Sabir | 40,8% |
| 62 Saatlı | Ələkbərov Əziz | 43,1% |
| 63 Sabirabad birinci | Cəfərov Kamal | 50,9% |
| 64 Sabirabad ikinci | Məmmədov Ramin | 54.0% |
| 65 Saatlı-Sabirabad-Kürdəmir | Əmiraslanov Əhliman | 64,5% |
| 66 Biləsuvar | Məhərəmov Bəhruz | 52,0% |
| 67 Cəlilabad şəhər | Malik Həsənov | 62,2% |
| 68 Cəlilabad kənd | Nəsirov Elman | 52,2% |
| 69 Cəlilabad-Masallı-Biləsuvar | İbrahimli Fəzail | 50,2% |
| 70 Masallı şəhər | Məmmədov Məşhur | 64.0% |
| 71 Masallı kənd | İsgəndərov Anar | 61,2% |
| 72 Yardımlı-Masallı | Qasımlı Musa | 51,2% |
| 73 Lənkəran şəhər | Quliyev Rüfət | 54,1% |
| 74 Lənkəran kənd | Rəcəbli Hadı | 53,5% |
| 75 Lənkəran-Masallı | Paşazadə Cavanşir | 58,6% |
| 76 Lənkəran-Astara | Əsgərov Ziyafət | 61,2% |
| 77 Astara | Mahmudov Rəşad | 61,2% |
| 78 Lerik | Məmmədov İqbal | 42,0% |
| 79 İmişli | Nurullayev Razi | 48,3% |
| 80 İmişli-Beyləqan | Qənizadə Çingiz | 50,6% |
| 81 Beyləqan | İsmayılov Şahin | 63,3% |
| 82 Ağcabədi | Rzayev Tahir | 60,5% |
| 83 Ağcabədi-Füzuli | Abbasov Aqil | 60,0% |
| 84 Füzuli | Bayramov Vüqar | 56,7% |
| 85 Şamaxı | Tamam Cəfərova | 49,8% |
| 86 İsmayıllı | Novruzəli Aslanov | 52,8% |
| 87 Ağsu-İsmayıllı | Kərimli Tahir | 50,8% |
| 88 Göyçay | Hacıyev Sabir | 54,1% |
| 89 Göyçay-Ağdaş | Əfəndiyev Məzahir | 49,8% |
| 90 Ağdaş | Osmanov Cavid | 60,9% |
| 91 Ucar | Həsənov Ramil | 51,9% |
| 92 Zərdab-Ucar | Əliyeva Jalə | 52,9% |
| 93 Bərdə şəhər | Yıldırım Fatma | 59,9% |
| 94 Bərdə kənd | Oruc Zahid | 60,4% |
| 95 Tərtər | Alıyev Sahib | 41,2% |

| | | |
|---|---|---|
| 96 Goranboy-Naftalan | Məmmədov Anar | 59,8% |
| 97 Goranboy-Ağdam-Tərtər | Vəliyev Ağalar | 66,3% |
| 98 Şəmkir şəhər | Sahibə Qafarova | 62,2% |
| 99 Şəmkir kənd | Həsənov Nurlan | 62,7% |
| 100 Şəmkir-Daşkəsən | Bayramov Kamran | 63,8% |
| 101 Göygöl-Daşkəsən | Mirbəşir Elşad | 43,1% |
| 102 Samux-Şəmkir | Səfərov Nizami | 63,3% |
| 103 Gədəbəy | Hüseynova Sevinc | 61,1% |
| 104 Gədəbəy-Tovuz | Nağıyev Arzu | 50,2% |
| 105 Tovuz | Paşayeva Qənirə | 57,3% |
| 106 Tovuz-Qazax-Ağstafa | Ağayevə Ülviyyə | 51,1% |
| 107 Qazax | Seyidov Səməd | 64,1% |
| 108 Ağstafa | Cəfərov Nizami | 63,1% |
| 109 Balakən | Məhəmməliyev Nəsib | 60,5% |
| 110 Zaqatala | Musayev Elşən | 49,5% |
| 111 Zaqatala-Balakən | Əliyeva Kamilə | 50,7% |
| 112 Qax | Kərimli Azər | 51,7% |
| 113 Şəki şəhər | İsgəndərov Vüqar | 54,9% |
| 114 Şəki kənd birinci | Əli Mənsimli | 51,2% |
| 115 Şəki kənd ikinci | Feyziyev Cavanşir | 65,0 |
| 116 Qəbələ | Heydərov Fəttah | 70,6% |
| 117 Oğuz-Qəbələ | Aqiyə Naxçıvanlı | 68,0% |
| 118 Ağdam şəhər | Əliyev Bəxtiyar | 62,2% |
| 119 Ağdam kənd | Sadıqov Bəxtiyar | 60,6% |
| 120 Cəbrayıl-Qubadlı | Məmmədov Ceyhun | 54,2% |
| 121 Laçın | Abbaszadə Mahir | 58,2% |
| 122 Xankəndi | Gəncəliyev Tural | 57,1% |
| 123 Kəlbəcər | Aqil Məmmədov | 61,1% |
| 124 Şuşa-Ağdam-Xocalı-Xocavənd | Elman Məmmədov | 55,0% |
| 125 Zəngilan-Qubadlı | İsmayılov İmamverdi | 53,4% |

# “Opinion Way” təşkilatının keçirdiyi “exit-poll”un nəticələri

| Seçki dairəsi | Lider namizədlər |
|---|---|
| 8 saylı Binəqədi birinci seçki dairəsi | Azay Quliyev 48.1% |
| 9 saylı Binəqədi ikinci seçki dairəsi | Qafarov Kəmaləddin 65.3% |
| 10 saylı Binəqədi üçüncü seçki dairəsi | Musayev Madər 60.8% |
| 11 saylı Qaradağ seçki dairəsi | Hüseynov Aydın 61.9% |
| 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi | Xasiyeva Səbinə 57.3 |
| 13 saylı Xəzər-Pirallahı seçki dairəsi | Əliyev Rauf 50.1 |
| 14 saylı Xəzər seçki dairəsi | Məmmədov Soltan 51.9 |
| 15 saylı Yasamal birinci seçki dairəsi | Quliyev Ülvi 46.2 |
| 16 saylı Yasamal ikinci seçki dairəsi | Qədirli Erkin 43.1 |
| 17 saylı Yasamal üçüncü seçki dairəsi | Allahverdiyev Elnur 61.1 |
| 18 saylı Nərimanov-Nizami seçki dairəsi | Musabəyov Rasim 43.1 |
| 19 saylı Nərimanov birinci seçki dairəsi | Məmmədov Hikmət 47.1 |
| 20 saylı Nərimanov ikinci seçki dairəsi | Əliyev Adil 57.1 |
| 21 saylı Nəsimi birinci seçki dairəsi | İbrahimqızı Məlahət 60.2 |
| 22 saylı Nəsimi ikinci seçki dairəsi | Mollazadə Asim 45.7 |
| 23 saylı Nəsimi-Səbail seçki dairəsi | Səmədzadə Ziyad 43.8 |
| 24 saylı Nizami birinci seçki dairəsi | Nurullayeva Könül 43.9 |
| 25 saylı Nizami ikinci seçki dairəsi | Vəliyeva Sədaqət 56 |
| 26 saylı Sabunçu birinci seçki dairəsi | Mustafa Fazil 40 |
| 27 saylı Sabunçu ikinci | Salahzadə Əliabbas 56 |
| 28 saylı Sabunçu üçüncü seçki dairəsi | Quliyev Eldar 40.9 |
| 29 saylı Səbail seçki dairəsi | Arpadarai Nigar 47.1 |
| 30 saylı Suraxanı birinci seçki dairəsi | Fətəliyeva Sevinc 63 |
| 31 saylı Suraxanı ikinci seçki dairəsi | Əliyev Etibar 45.1 |
| 32 saylı Suraxanı üçüncü seçki dairəsi | Həsənova Afət 58.4 |
| 33 saylı Xətai birinci seçki dairəsi | Mirələmov Hüseynbala 56.8 |
| 34 saylı Xətai ikinci seçki dairəsi | Zabelin Mixail 49 1 |
| 35 saylı Xətai üçüncü seçki dairəsi | Rauf Arifoglu 45.1 |
| 36 saylı Xətai dördüncü seçki dairəsi | Həsənquliyev Qüdrət 43.1 |
| 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsi | Kərimzadə Pərvin 44.5 |
| 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi | Həmzəyev Naqif 46.1 |
| 39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsi | Cəfərov Müşviq 46 |
| 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi | Quliyev Musa 43.9 |
| 41 saylı Sumqayıt birinci seçki dairəsi | Hüseynova Hicran 56.6 |
| 42 saylı Sumqayıt ikinci seçki dairəsi | Mirkişili Tahir 52.3 |
| 43 saylı Sumqayıt üçüncü seçki dairəsi | Hacıyev Emin 57 |
| 44 saylı Sumqayıt-Xızı seçki dairəsi | Məmmədli Müşfiq 50.9 |
| 45 saylı Abşeron seçki dairəsi | Oqtay Əsədov 63 |
| 46 saylı Şirvan seçki dairəsi | İntizam Yusifov 50.7 |
| 47 saylı Mingəçevir seçki dairəsi | Mirzəzadə Aydın 54.3 |
| 48 saylı Yevlax seçki dairəsi | Məmmədli İlham 56.1 |
| 49 saylı Yevlax-Mingəçevir seçki dairəsi | Hüseynov Əli 58.1 |



Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu dünən ölkədə keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı “exit-poll” nəticələrini açıqlayır.

Trend-in məlumatına görə, institutun baş direktoru Bruno Janbar çıxış edib. O bildirib ki, 236 məntəqədə exit-poll həyata keçirilib: “Səs verən şəxsləri Azərbaycan dilində sorğuya cəlb etdik. Sorğu bütün ölkə üzrə həm kənd, həm də şəhər məntəqələrində həyata keçirildi. Sorğuda 10 min 119 nəfər iştirak edir. Seçici fəallığı 55,06 faiz olub”.

### “Exit-poll”un nəticələri:

| | |
|---|---|
| 50 saylı Abşeron-Qobustan seçki dairəsi | Seyidzadə Şahin 40.9 |
| 51 saylı Qusar seçki dairəsi | Badamov Azər 55.2 |
| 52 saylı Quba seçki dairəsi | Əhmədov Vahid 46.2 |
| 53 saylı Quba-Qusar seçki dairəsi | Rafailov Anatoliy 40.9 |
| 54 saylı Şabran-Siyəzən seçki dairəsi | Qurbanov Sadiq 47 |
| 55 saylı Xaçmaz şəhər seçki dairəsi | Səlimov Eldəniz 58.2 |
| 56 saylı Xaçmaz kənd seçki dairəsi | Mikayılova Sevil 43.9 |
| 57 saylı Kürdəmir seçki dairəsi | Ağazadə Əminə 55.2 |
| 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi | Hüseynov Rəfael 48.6 |
| 59 saylı Salyan seçki dairəsi | Əhmədova Jalə 51.5 |
| 60 saylı Salyan-Neftçala seçki dairəsi | Ağamalı Fəzail 50.2 |
| 61 saylı Neftçala seçki dairəsi | Rüstəmxanlı Sabir 38.2 |
| 62 saylı Saatlı seçki dairəsi | Ələkbərli Əziz 44 |
| 63 saylı Sabirabad birinci seçki dairəsi | Cəfərov Kamal 56.1 |
| 64 saylı Sabirabad ikinci seçki dairəsi | Məmmədov Ramin 57.3 |
| 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi | Əmiraslanov Əhliman 60 |
| 66 saylı Biləsuvar seçki dairəsi | Məhərrəmov Bəhruz 48.4 |
| 67 saylı Cəlilabad şəhər seçki dairəsi | Həsənov Malik 55.7 |
| 68 saylı Cəlilabad kənd seçki dairəsi | Nəsirov Elman 47 |
| 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi | İbrahimli Fəzail 53.1 |
| 70 saylı Masallı şəhər seçki dairəsi | Məmmədov Məşhur 56.9 |
| 71 saylı Masallı kənd seçki dairəsi | İsgəndərov Anar 54.8 |
| 72 saylı Yardımlı-Masallı seçki dairəsi | Qasımlı Musa 48.8 |
| 73 saylı Lənkəran şəhər seçki dairəsi | Quliyev Rüfət 58.7 |
| 74 saylı Lənkəran kənd seçki dairəsi | Rəcəbli Hadi 54.8 |
| 75 saylı Lənkəran-Masallı seçki dairəsi | Paşazadə Cavanşir 59.2 |
| 76 saylı Lənkəran-Astara seçki dairəsi | Əsgərov Ziyafət 59.1 |
| 77 saylı Astara seçki dairəsi | Mahmudov Rəşad 65.5 |
| 78 saylı Lerik seçki dairəsi | Məmmədov İqbal 44.9 |
| 79 saylı İmişli seçki dairəsi | Nurullayev Razi 49 |
| 80 saylı İmişli-Beyləqan seçki dairəsi | Qənizadə Çingiz 55.1 |
| 81 saylı Beyləqan seçki dairəsi | İsmayılov Şahin 59.8 |
| 82 saylı Ağcabədi seçki dairəsi | Rzayev Tahir 61.6 |
| 83 saylı Ağcabədi-Füzuli seçki dairəsi | Abbas Aqil 63.2 |
| 84 saylı Füzuli seçki dairəsi | Bayramov Vüqar 55.6 |
| 85 saylı Şamaxı seçki dairəsi | Cəfərova Tamam 52.1 |
| 86 saylı İsmayıllı seçki dairəsi | Novruzəli Aslanov 47 |
| 87 saylı Ağsu-İsmayıllı seçki dairəsi | Kərimli Tahir 46.2 |
| 88 saylı Göyçay seçki dairəsi | Hacıyev Sabir 48.1 |
| 89 saylı Göyçay-Ağdaş seçki dairəsi | Əfəndiyev Məzahir 55.7 |
| 90 saylı Ağdaş seçki dairəsi | Osmanov Cavid 64.1 |
| 91 saylı Ucar seçki dairəsi | Həsən Ramil 52.2 |
| 92 saylı Zərdab-Ucar seçki dairəsi | Əliyeva Jalə 56.4 |
| 93 saylı Bərdə şəhər seçki dairəsi | Yıldırım Fatma 63.2 |
| 94 saylı Bərdə kənd seçki dairəsi | Oruc Zahid 56.9 |

| | |
|---|---|
| 95 saylı Tərtər seçki dairəsi | Alıyev Sahib 41 |
| 96 saylı Goranboy-Naftalan seçki dairəsi | Məmmədov Anar 61.3 |
| 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi | Vəliyev Ağalar 65.8 |
| 98 saylı Şəmkir şəhər seçki dairəsi | Qafarova Sahibə 63.8 |
| 99 saylı Şəmkir kənd seçki dairəsi | Həsənov Nurlan 63 |
| 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi | Bayramov Kamran 60.9 |
| 101 saylı Göygöl-Daşkəsən seçki dairəsi | Mirbəşiroğlu Elşad 45 |
| 102 saylı Samux-Şəmkir seçki dairəsi | Səfərov Nizami 62.8 |
| 103 saylı Gədəbəy seçki dairəsi | Hüseynova Sevinc 58.9 |
| 104 saylı Gədəbəy-Tovuz seçki dairəsi | Nağıyev Arzu 53.6 |
| 105 saylı Tovuz seçki dairəsi | Paşayeva Qənirə 62.1 |
| 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi | Ağayeva Ülviyyə 50.8 |
| 107 saylı Qazax seçki dairəsi | Seyidov Səməd 65.7 |
| 108 saylı Ağstafa seçki dairəsi | Cəfərov Nizami 58 |
| 109 saylı Balakən seçki dairəsi | Məhəməliyev Nəsib 62.7 |
| 110 saylı Zaqatala seçki dairəsi | Musayev Elşən 45.8 |
| 111 saylı Zaqatala-Balakən seçki dairəsi | Əliyeva Kamilə 53.3 |
| 112 saylı Qax seçki dairəsi | Kərimli Azər 51.6 |
| 113 saylı Şəki şəhər seçki dairəsi | İsgəndərli Vüqar 55 |
| 114 saylı Şəki kənd birinci seçki dairəsi | Əli Məsimli 46.6 |
| 115 saylı Şəki kənd ikinci seçki dairəsi | Feyziyev Cavanşir 63.4 |
| 116 saylı Qəbələ seçki dairəsi | Heydərov Fəttah 73 |
| 117 saylı Oğuz-Qəbələ seçki dairəsi | Naxçıvanlı Aqiyə 67.4 |
| 118 saylı Ağdam şəhər seçki dairəsi | Əliyev Bəxtiyar 61 |
| 119 saylı Ağdam kənd seçki dairəsi | Sadıqov Bəxtiyar 61.7 |
| 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi | Məmmədov Ceyhun 54.1 |
| 121 saylı Laçın seçki dairəsi | Abbaszadə Mahir 54.8 |
| 122 saylı Xankəndi seçki dairəsi | Gəncəliyev Tural 56.7 |
| 123 saylı Kəlbəcər seçki dairəsi | Məmmədov Aqil 62.3 |
| 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsi | Məmmədov Elman 57.1 |
| 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi | İsmayılov İmamverdi 51 |

# Xarici parlamentarilər: “Seçkilərdə heç bir problem və maneələrlə qarşılaşmadıq”



***“Pulman” otelində xarici müşahidəçilərin 9 fevral 2020-cildə keçirilmiş parlament seçkiləri ilə bağlı mətbuat konfransı keçirilib. SİA xəbər verir ki, mətbuat konfransında çıxış edən müşahidəçilər bildiriblər ki, onların Bakıda olmalarının səbəbi parlament seçkilərini müşahidə etməkdən ibarət olub.***

Bildirilib ki, seçki prosesi yüksək səviyyədə təşkil olunub və diqqətçəkici amillərdən biri də seçkiləri çoxsaylı müşahidəçilərin izləməsi olub. Bavariya parlamentinin deputatı Unri Henkel bildirib ki, onlar bütün məntəqələri gəzə bilməsələr də, bir neçə məntəqələrdə müşahidələrini reallaşdırıblar və müşahidələr zamanı heç bir problem və maneələrlə rastlaşmayıblar. Yunanıstan parlamentinin deputatı Mazaros isə bildirib ki, onlar dörd seçki məntəqəsində olublar və seçki prosesi demokratikliyi, şəffaflığı ilə seçilib. “Mən də həmkarlarımla yeni seçiləcək parlamentin tərkibinə uğurlar arzulayıram”, deyə yunanıstanlı deputat qeyd edib.

Digər yunan parlamentinin təmsilçisi Stella Bizioy da qeyd edib ki, seçkiləri müşahidə etdikləri zaman heç bir problem yaşanmayıb. “İnanıram ki, nəticələr də şəffaf və demokratiyanın möhkəmlənməsinə xidmət edəcək”, xanım parlamentari bildirib.

Yunanıstan parlamentinin digər xanım deputatı Katorina Monoyo da həmkarlarının fikirləri ilə tam razı olduğunu qeyd edib və bildirib ki, o həmkarlarından fərqli olaraq, öz ana dilində danışmağı tərcih edir. Monoyo yunan dilində “Azərbaycan xalqının diqqətinə və qonaqpərvərliyinə görə təşəkkür edirəm və bildirirəm ki, seçkilər demokratik keçib”, deyə vurğulayıb.

***Rövşən RƏSULOV***

# Vyetnamlı müşahidəçi: “Biz Azərbaycanın seçki təcrübəsini öyrənməliyik”



“Biz Azərbaycanın seçki keçirmək təcrübəsini öyrənməliyik. Burada olduğumuz dörd gün müddətində Azərbaycanda tam şəffaf seçki prosesinin şahidi olduq”. SİA xəbər verir ki, bu fikirləri fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkilərini izləyən vyetnamlı müşahidəçilərdən ibarət nümayəndə heyətinin sədri, Vyetnam-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Nghiem Vu Khai bildirib.

O, Qəbələ, Şəki və Bakıda seçkiqabağı prosesi izlədiklərini, müşahidə apardıqları 5 məntəqəsində namizədlərlə bağlı bütün məlumatların yerləşdirildiyini, şəffaflığın təmin olunduğunu və bütün namizədlərə bərabər şəraitin yaradıldığını qeyd edib. Deyib ki, proses tam şəffaf şəkildə həyata keçirilib.

Səsvermə prosesində müasir texnologiyaların istifadə olunmasını yüksək qiymətləndirən müşahidəçi bildirib. “Eyni zamanda, biz seçki prosesində texnologiyaların tətbiqinin əyani şahidi olduq. Yəni, istənilən xarici ölkədən Azərbaycanda keçirilən seçkiləri sərbəst şəkildə izləmək mümkündür. İnsanların barmaqlarına mürəkkəbin vurulması da bizim üçün yenilik idi. Bu, şəffaflığın tam təmin edilməsinin göstəricisidir. Olduğumuz məntəqədə insanların sərbəst şəkildə səs vermələrinin şahidi olduq, hər hansı pozuntu müşahidə etmədik. Seçicilərlə söhbətimdə onlar daha çox gənc namizədləri dəstəklədiklərini bildirdilər. Bu, müsbət məqamdır. İnanıram ki, yeni seçilən parlament daha güclü olacaq”.

# İsrailli müşahidəçi: “Seçkilər şəffaf və demokratik şəraitdə keçdi”




“Mən bakılıyam, Bakıda doğulmuşam. Bakı dünyanın ən gözəl inkişaf edən şəhərlərinəndir. Bakı bulvarı son dərəcə heyranedicidir”. Bunu 9 fevral parlament seçkiləri ilə bağlı ölkəmizdə səfərdə olan İsrail nümayəndə heyətinin üzvü Roman Gureviç keçirtdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Bakı şəhərində altı dairədə seçki prosesini yaxından izləyiblər: “İnsanların tam sərbəst və azad şəkildə məntəqələrə gələrək səsvermədə iştirak etdiklərini gördük. Seçkilərin azad və demokratik şəraitdə keçirilməsi üçün məntəqələrdə hər cür şərait yaradılmışdı”.

Seçkilərin nəticələri ilə bağlı fikirlərini bölüşən digər müşahidəçi Boris Qrosman qeyd edib ki, artıq Azərbaycanda keçirilən seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsinə ehtiyac yoxdur. “Hesab edirəm ki, siz artıq özünüz başqa ölkələrdə müşahidəçi kimi iştirak edə bilərsiniz. Yaşlı nəslin nümayəndələrinin seçkilərə gələrək səs verməsi sadəcə valehedici idi. Belə soyuq, şaxtalı və küləkli havada seçicilərin fəal olacaqlarına ümidimiz az idi. Lakin hər şey gözlədiklərimizin əksinə oldu”.

Boris Grosman 9 fevral parlament seçkilərinin xalqın iradəsi ilə obiyektiv və aşkarlıq şəraitində keçirildiyini bildirib. Müşahidəçi Aleksey Tessarskiy Azərbaycanda insanların seçkilərdə həvəslə iştirak etdiklərini qeyd edib. Deyib ki, çünki burada insanlar öz tarixlərinə biganə deyillər.

# Belarusun müşahidə missiyası: “Seçkilərə yüksək səviyyədə hazırlığın şahidi olduq”




***Belarus parlamentinin müşahidə missiyası fevralın 9-da Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib. SİA xəbər verir ki, missiyanın rəhbəri Sergey Raçkov müşahidə apardıqları seçki məntəqələrində fəallığın olduğunu bildirib. O deyib ki, təşkilatlanma yaxşı səviyyədə idi. Hazırlıq səviyyəsi də yaxşı idi. Namizədlərin hər biri üçün yaxşı şərait yaradılmışdı. Bu da şəffaflığın və ədalətli seçkinin olduğunu göstərirdi.***

Sergey Raçkov vurğulayıb ki, seçicilər azad şəkildə öz seçimlərini edirdilər. Onlar məntəqələrdə heç bir təsirə məruz qalmırdılar. Əksər məntəqələrdə “exit-poll” təşkil olunmuşdu. Belarus parlamentinin üzvü Aleksandr Markeyviç isə deyib ki, Bakının müxtəlif rayonlarındakı seçki məntəqələrində müşahidələr aparıblar. “Müşahidələr zamanı yüksək səviyyədə hazırlığın şahidi olduq. Qanun pozuntuları yox idi. İnanırıq ki, yeni parlamentlə də əməkdaşlığımızı davam etdirəcəyik”, - deyə o əlavə edib.

# AZƏRBAYCANDA SEÇKİLƏR AZAD VƏ DEMOKRATİK ŞƏKİLDƏ BAŞA ÇATDI



*9 fevral 2020-ci il tarixində keçirilən parlament seçkiləri Azərbaycanda ictimai-siyasi fəallığın kifayət qədər yüksək olduğunu təsdiqləyir. Bu mənada Milli Məclisə keçirilən seçkilərin nəticələri ölkəmizdə mövcud şəffaf, demokratik, ədalətli seçkilər ənənəsinin getdikcə daha da dərinləşib möhkəmləndiyini göstərir. Bu, heç də təsadüfi deyil. Bütün sivil, demokratik, dünyəvi ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki prosesinə hər zaman böyük ictimai maraq göstərilir. 9 fevral parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasının gedişində Milli Məclisin qanunvericilik fəaliyyətinə aktiv münasibət bildirilməsi, millət vəkili seçilməyə iddialı namizədlərin ictimai-siyasi fəaliyyətinin ciddi təhlil olunması, qiymətləndirilməsi, prinsipcə, arzuolunan, təqdirəlayiq haldır. Bunun nəticəsidir ki, seçicilər parlament seçkilərində çox fəal iştirak ediblər. Belə ki, bu seçkilərdə seçicilərin yarıdan çoxu - faizi səsverməyə qatılıb, azad, sərbəst şəkildə Milli Məclis deputatlığına layiq bildiyi namizədlərə səs verib.*

## Yeni Azərbaycan Partiyası layiqli qələbə qazanıb

İstənilən seçkidə ictimai-siyasi qüvvələrin, siyasi partiyaların fəallaşması, seçki prosesində bu və ya digər dərəcədə uğur qazanmağa səy göstərməsi tam təbii və gözləniləndir. Bu zaman sağlam siyasi rəqabətin aparılması, seçki qanunvericiliyinin tələblərinə riayət edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, dağıdıcı müxalifətin təmilçiləri, ötən seçkilərdə olduğu kimi, bu dəfə də “ənənə”lərinə sadiq qaldılar. Onlar seçki kampaniyası başladığı andan indiyədək seçki prosesinin gedişini, eləcə də, səsvermənin nəticələrini uğursuz şəkildə şübhə altına almağa səy göstərdilər. Bu, bir daha onu göstərir ki, seçkilərdə acınacaqlı məğlubiyyətə düçar olan dağıdıcı düşərgə həmişəki kimi ləyaqətlə uduzmağı - öz məğlubiyyətini həzm etməyi bacarmır. Odur ki, radikallar bu parlament seçkilərində də seçki kampaniyasına kölgə salmağa, ciddi təşviqat aparmaq əvəzinə, təxribat xarakterli fikirlər səsləndirməklə məşğul olublar. Onlar bununla bağlı, başladıqları “qara piar” kampaniyasını daha iyrənc formada davam etdirirlər. Onlar bu mübarizədə bütün əxlaqi meyarları, ədəb-ərkan qaydalarını pozaraq, rəqiblərinə qarşı aşkar şəkildə qərəzli mövqe tuturlar. Bu isə son nəticədə əks-bumeranq effekti ilə onların özünə qarşı yönəlib.

Aydındır ki, müxalifət partiyalarını nə ayrılıqda, nə də birlikdə hər hansı formada növbəti dəfə parlament seçkilərinin favoritinə çevrilən Yeni Azərbaycan Partiyası ilə müqayisə etmək mümkün deyil. Populyarlığına, reytinqinə, cəmiyyətdə aparıcı mövqe tutmasına, üzvlərinin sayına, ideya-siyasi xəttinə görə, hər zaman öndə gedən YAP-ın siyasi qüvvə kimi ölkədə real, alternativi yoxdur. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası indiyədək iştirak etdiyi prezident, parlament, bələdiyyə seçkilərində birmənalı şəkildə, böyük səs çoxluğu ilə layiqli qələbə qazanıb. Odur ki, 9 fevral parlament seçkilərində qazanılan növbəti möhtəşəm qələbə, məntiqi qanunauyğunluq kimi, Yeni Azərbaycan Partiyasının ardıcıl qələbələr seriyasını tamamlayır. Bu seçkilərdə partiyanın növbəti böyük, inamlı qələbəsi xalqın böyük dəstəyi, seçicilərin





# AZƏRBAYCANDA SEÇKİLƏR AZAD VƏ DEMOKRATİK ŞƏKİLDƏ BAŞA ÇATDI












mütləq əksəriyyətinin məhz Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməsi sayəsində əldə edilib. Partiyanın inamlı qələbə qazanmasında Yeni Azərbaycan Partiyası namizədlərinin uğurla həyata keçirilən təbliğat-təşviqat kampaniyası, seçicilərlə qurulan fəal, səmimi ünsiyyət də mühüm rol oynayıb. Seçkilərə "Daha Güclü Azərbaycan Naminə!" şüarı ilə qatılan YAP ölkənin aparıcı siyasi təşkilatı kimi, Azərbaycanı tərəqqiyə, rifaha aparan alternativsiz ictimai-siyasi qüvvə olduğunu qazandığı inamlı qələbə ilə təsdiqləyib.

## Mütləq qələbə ilə nəticələnən uğurlu seçki strategiyası

Hər bir seçkini çox əhəmiyyətli hesab edən Yeni Azərbaycan Partiyası malik olduğu yüksək potensiala, siyasi gücünə baxmayaraq, bu seçkilərə böyük səylə, xüsusi diqqətlə hazırlaşmışdı. YAP parlament seçkilərinə qatılarkən hər bir rəqibini, onun potensialını, siyasi hazırlığını, intellektual potensialını, mübarizə taktikasını və strategiyasını hərtərəfli qiymətləndirmiş və nəzərə almışdı. Başqa sözlə, parlament seçkilərində mümkün fəaliyyət taktikası bütün vacib parametrlər, siyasi reallıqlar nəzərə alınmaqla müəyyənləşdirilib və həyata keçirilib.

Azərbaycanda alternativsiz siyasi qüvvəyə çevrilən Yeni Azərbaycan Partiyası seçki təbliğatına hər zaman çox ciddi yanaşır, seçicilərlə fəal iş aparır, geniş ictimaiyyətin maraqlarının müdafiəsinə yönəlmiş çoxsaylı mütərəqqi sosial-siyasi təşəbbüslərlə çıxış edir. Yeni Azərbaycan Partiyası dövlətin, cəmiyyətin, geniş ictimaiyyətin, eləcə də, əhalinin bütün təbəqələrinin maraqlarını tam nəzərə alır. Hazırda YAP Azərbaycanın siyasi səhnəsində kifayət qədər monolit, alternativsiz siyasi qüvvədir. Parlament seçkilərinin nəticəsi radikal düşərgənin Yeni Azərbaycan Partiyasına bütün əlamətlərə görə uduzduğunu, YAP-la ciddi rəqabət aparmaq iqtidarında olmadığını bir daha təsdiqləyir.

Belə şəraitdə siyasi cəhətdən yetkin, ideoloji baxımdan təkmil, intellektual baxımından hazırlıqlı, mütəşəkkillik baxımından təkmil, monolitlik baxımından möhkəm və vahid lider ətrafında birləşmiş güclü siyasi təşkilat - Yeni Azərbaycan Partiyasının seçkidə böyük, uğurlu, inamlı qələbəsi zərurətdən doğan təbii nəticə kimi özünü göstərir. Belə vəziyyətdə radikalların qara piara əl atması ümidsizliyin və zəifliyin göstəricisi kimi meydana çıxır.







# Kan-Lük Reytser: “25 il əvvəl mən burada müşahidəçi idim və bu gün böyük tərəqqi görürəm”

**“Vestnik Kavkaza” Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı Fransa parlamentinin deputatı, Fransa-Azərbaycan Dostluq Qrupunun vitse-prezidenti Kan-Lük Reytserdən müsahibə alıb. “SƏS”in İnformasiya Agentliyi sözügedən müsahibəni tərcümə şəklində təqdim edir.**

*- Azərbaycanda keçirilən parlament seçkilərilə bağlı sizdə hansı təəssüratlar yaranıb?*



- “Hər şey çox gözəl təşkil edilib. Biz dərhal bütün namizədlərin siyahılarını, səsvermə qaydalarını və digər prosesləri gördük. Biz görürük ki, təşkilatçılıq məsələləri ilə yaxşı ixtisaslaşmış peşəkarlar məşğul olur. Seçicilərin kabinəyə daxil olaraq, öz seçimlərini və şəxsi seçimlərini etməyə heç nə mane olmur.

*- Fransa və Azərbaycan parlamentarilərinin münasibətləri necə tənzimlənəcək?*

- Milli Məclisin yeni tərkibində bir çox gənc insanların, daha çox qadınların olacağı gözlənilir. Azərbaycan parlamenti daha çox Fransa parlamentinə bənzəyəcək. Mən, Fransa-Azərbaycan Dostluq Qrupunun vitse-prezidenti kimi tez-tez Bakıda oluram. Bizdə bu şəhərlə sıx münasibətlər formalaşdırılıb və biz bu əməkdaşlığı daha da dərinləşdirmək istəyirik.

Fransada erməni diasporasının üzvləri yaşayır, ona görə də, vacibdir ki, Fransa ictimaiyyəti və siyasətçiləri Azərbaycanın fikirlərini, düşüncələrini, mövqeyini eşidibanlasınlar. Biz çox ümid edirik ki, Fransa prezidenti Emmanuel Makron daha sıx münasibət qurmaq üçün Bakını ziyarət edə biləcək. Ona görə ki, Azərbaycan regionun sabitliyi üçün çox böyük rol oynayır. Hazırda Bakı Rusiya, İran və Türkiyə kimi böyük dövlətlərlə özünün balanslaşdırılmış xarici siyasətini qurmağa çalışır. Bu dövlətlərlə möhkəm bağların yaranması üçün Azərbaycan prezidentinin böyük xidmətləri vardır.

- Azərbaycanda həyata keçirilən islahatlardan nə gözləyirsiniz?

- Hazırda burada elektoral proses gedir ki, bu da Fransa ilə münasibətdə pozitiv təsirlər göstərir. Vurğulamaq istərdim ki, Fransaya əsl demokratik prosesləri formalaşdırmaqdan ötrü 200 il lazım oldu. 25 il əvvəl mən burada müşahidəçi idim və bu gün böyük tərəqqi görürəm.

***Rövşən RƏSULOV***

# Xarici müşahidəçilər: “Azərbaycanda mövcud olan və daha da inkişaf etdirilən seçki institutu ən yüksək şəkildə formalaşıb”




***9 fevral parlament seçkilərində Səbail rayonunda seçici fəallığı müşahidə edilir. Xüsusilə 29 saylı Səbail Seçki Dairəsinin 1376 nəfər seçicisi olan 2 saylı məntəqəsində (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) səhər saatlarından başlayaraq seçicilər məntəqətə aktiv şəkildə gəlirlər.***

Seçkiləri xarici müşahidəçilər də izləyiblər. Qeyd edək ki, onlar səhər saat 8:00-da şəffaf seçki qutularının plomblanması və nömrələnməsini, həmçinin, seçicilərin səsvermə prosesini də müşahidə ediblər.

MDB-nin Parlament Assambleyasının baş katibi Dmitri Kaibitski Dmitri və digər müşahidəçisi Sadiq Soqoyev bildiriblər ki, Azərbaycanda aparılan islahatların parlamentdə də davam etdirilməsi demokratik addımdır və bununla bağlı keçirilən parlament seçkiləri öz şəffaflığı illə seçilir. O cümlədən, seçkiöncəsi təbliğat-təşviqat prosesi də yüksək fəallığı və kifayət qədər az nöqsanları ilə seçilib.

Müşahidəçilər qeyd ediblər ki, seçici fəallığı və yüksək seçki kampaniyası bir daha göstərir ki, Azərbaycanda mövcud olan və daha da inkişaf etdirilən seçki institutu ən yüksək şəkildə formalaşıb.

**Məntəqə sədri: “Proses demokratik və şəffaf şəkildə həyata keçirilir”**

29 saylı Səbail rayonu Seçki Dairəsinin 132-134 saylı məktəblərdə yerləşən 4 və 5 saylı seçki məntəqələrində seçki prosesi seçici fəallığı ilə müşahidə olunur. Bu məntəqələrdə də yerli və xarici müşahidəçilər prosesi izləyiblər. MDB-nin Parlament Assambleyasının baş katibi Dmitri Kaibitski Dmitri və qurumun digər müşahidəçiləri - Sadiq Soqoyev, Koziak Yuiken seçki məntəqəsinə gələrək, seçicilərin səsvermısini izləməklə yanaşı, məntəqədə yaradılmış şəraitlə maraqlanıblar. Onlar veb kameraların quraşdırılmasını, eləcə də barmaqlara xüsusi mürəkkəbin vurulmasını prosesin şəffaf keçirilməsi ilə əlaqələndirərək deyiblər ki, bu seçkilər digər ölkələrdə keçirilən seçkilərə örnək sayıla bilər. Xarici müşahidəçilər parlament seçkilərinin uğurla başa çatacağına əminliklərini ifadə ediblər.

4 saylı məntəqənin sədri Sara Xanlarova bildirib ki, seçicilər səhər saat 8:00-dan etibarən rayon ərazisində fəaliyyət göstərən məntəqələrə gələrək, azad və şəffaf şəkildə səsvermədə iştirak edirlər. Eləcə də, yerli və xarici müşahidəçilər üçün seçki prosesini izləməyə bütün şərait yaradılıb: “MSK tərəfindən seçicilər üçün bütün şəraitin yaradılması, seçkilərin Seçki Məcəlləsinə uyğun həyata keçirilməsi də sübut edir ki, bu proses demokratik və şəffafdır”.

***Rəfiqə Kamalqızı***
***Rövşən Nurəddinoğlu***

# Məntəqə sədri: “Xarici müşahidəçilər seçkinin gedişindən razılıq ediblər”



“Seçki prosesi azad və demokratik şəkildə davam edir, hər şey yaxşıdır. İnsanlar gəlir və öz səslərini verirlər, hər hansı bir problem yaranmayıb”. Bunu SİA-ya açıqlamasında 18 saylı Nərimanov-Nizami Seçki Dairəsinin 14 saylı seçki məntəqəsinin sədri Şəkər İbrahimova deyib. Onun sözlərinə görə, səhər saatlarında ATƏT-in nümayəndələri məntəqədə seçki prosesini izləyiblər və onlar seçkinin gedişindən razılıqlarını ediblər: “Müxtəlif siyasi partiyalardan müşahidəçilər seçki prosesini yaxından izləyirlər. Seçki ərazində 1494 nəfər seçici qeydiyyata alınıb ki, onlardan da 13:45-a qədər 764 nəfər seçki hüququndan istifadə edərək, səsvermə də iştirak ediblər”.

***Gülyanə, Mirqəmər***

# Misirli jurnalist: Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub

***Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə edən misirli jurnalist Məhəmməd Salama AZƏRTAC-a müsahibəsində indiyədək 4-5 seçki məntəqəsində olduğunu və bütün prosesə fikir verdiyini bildirib. O, seçkilərin yüksək səviyyədə təşkil olunduğunu bildirib.***



Məhəmməd Salama bildirib ki, məntəqələrdə seçicilər rahat gəlib səs verə bilirlər. Onlar məntəqələrdə yoxlanılır ki, əvvəl səs verib-vermədikləri məlum olsun. Bundan başqa, məntəqələrdə veb-kameralar quraşdırılıb. Bütün bunlar onu göstərir ki, seçkilər tam şəffaf keçirilir: “Seçkilərdə bundan əvvəlki və hazırkı müşahidələrim əsasında deyə bilərəm ki, Azərbaycan xalqı tam demokratik yolla öz namizədlərini seçmək hüququna malikdir”. Misirli jurnalist deyib: “Seçki məntəqələrində apardığım müşahidələrdə diqqətimi daha çox iki məqam cəlb etdi. Birincisi, gənclərin daha çox seçki məntəqələrinə gəlib səs vermələri. İkincisi də seçki məntəqələrinin sədrləri və üzvləri arasında qadınların üstünlük təşkil etməsi və onların fəallığı”. Məhəmməd Salama məntəqələrdə heç bir qanun pozuntusu müşahidə etmədiyini, seçicilərə hər cür şərait yaradıldığını vurğulayıb.

# Meksikanın "Puls News Mexico" qəzeti Azərbaycandakı seçki prosesinin şəffaf və nümunəvi olduğunu yazır


Azerbaijan's Transparent Electoral Process (Hey, Iowa, Take Note)

Photo: Trend

By THÉRÈSE MARGOLIS

BAKU, Azerbaijan — When you have a

Meksikanın ən çox oxunan ingilisdilli "Puls News Mexico" qəzetində Azərbaycanda keçirilən parlament seçkilərinə həsr olunmuş məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, Tereza Marqolisin müəllifi olduğu məqalədə Azərbaycan hökumətinin seçkilərin açıq və şəffaf keçirilməsi üçün həyata keçirdiyi tədbirlərin təqdir edildiyi, dünyanın müxtəlif ölkələrindən yüzlərlə beynəlxalq müşahidəçinin dəvət olunduğu bildirilir. Həmçinin müxtəlif ölkələrdən KİV nümayəndələrinin seçkiləri işıqlandırdığı qeyd olunur. Seçkilərdə müşahidəçi qismində Meksika Deputatlar Palatasının üzvü Aqustin Qarsiya Rubio və Tereza Marqolis də daxil olmaqla iki jurnalistin Meksikanı təmsil etdiyi diqqətə çatdırılır.

Məqalədə, həmçinin Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun seçkilərə hazırlıq prosesi ilə bağlı fikirlərinə istinad edilir.

Seçkilərdə gənc namizədlərin üstünlük təşkil etməsini müsbət hal kimi qeyd edən müəllif Azərbaycanın Şərqdə qadınlara səsvermə hüququ verən və qızlar üçün məktəb açan ilk ölkə olduğunu da vurğulayır.

Diqqətə çatdırılır ki, seçkilərin şəffaflığını təmin etmək məqsədilə məntəqələrin 20 faizində yüksək texnologiyalı veb-kameralar quraşdırılıb və bu da nümunəvi addımdır.

Müəllif Azərbaycan xalqının ölkə rəhbərliyinə dəstək və inamının əsas səbəbini mürəkkəb coğrafi mövqeyə və neftin qiymətinin son illər aşağı düşməsinə baxmayaraq, ölkənin sürətlə inkişaf edən iqtisadiyyatını qoruyub saxlaya bilməsi, sabitliyə nail olunması, əhalinin rifahının ildən-ilə yaxşılaşması, cinayətkarlığın səviyyəsinin dünya üzrə ən aşağı səviyyələrdə olması və terror hallarının yaşanmaması ilə əlaqələndirir.

# Maale-Adumimin vitse-meri: Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə təşkil edilib



Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə keçirilir. Seçkilərin təşkili məni heyran etdi. İsraildən çox müşahidəçi gəlib. Burada gördüyümüz hər şey mükəmməldir. Məncə, hamı çox razı qalıb. Təkcə sizdə deyil, bütün dünyada da belə olmalıdır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Maale-Adumim şəhərinin vitse-meri Boris Qrossman söyləyib. Onun sözlərinə görə, parlament seçkiləri ilin əsas hadisəsidir və bu hadisə dövlətin və cəmiyyətin sonrakı inkişafına şəksiz təsir göstərəcək. B.Qrossman deyib: "Xarici müşahidəçilərin dəvət edilməsi göstərir ki, Azərbaycanda parlament seçkiləri açıq, azad və aşkar keçirilir. Səsvermə prosesi beynəlxalq normalara uyğundur. Məni təəccübləndirən məqamlardan biri də bu oldu ki, hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, seçki məntəqələrində vətəndaşların fəallığı yüksəkdir. Bayırda bir dərəcə şaxtadır, amma insanlar, xüsusən də gənclər seçki məntəqələrinə axışırlar. Bu, çox yaxşı haldır".

# Finlandiyalı müşahidəçi: "Seçkilər bütün qaydalara uyğun təşkil olunub"



Azərbaycanda Milli Məclisə keçirilən seçkilər bütün qaydalara uyğun təşkil olunub. Bunu AZƏRTAC-a müsahibəsində Şamaxıda səsvermə prosesini izləyən finlandiyalı müşahidəçi Avqust Halonen bildirib.

O deyib: "Bu gün artıq ikinci seçki məntəqəsindəyik. Burada indiyə qədər hər hansı problemin şahidi olmadıq və düşünürəm ki, bundan sonra da heç bir qayda pozuntusu olmayacaq. Hələ bir neçə məntəqəyə də baş çəkəcəyik."

# İordaniyalı müşahidəçi: Məntəqələrdə seçicilər üçün hər şeyin yüksək səviyyədə təşkil edildiyinin şahidi oldum



Bu gün Azərbaycanda keçirilən seçkilər zamanı apardığım müşahidələr göstərir ki, hər şey normal vəziyyətdədir. Müxtəlif ölkələrdən müşahidəçilərin, jurnalistlərin prosesi izləməsi və işıqlandırması seçkilərin şəffaf keçməsinin əyani sübutudur. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclisə keçirilən seçkilərin gedişini izləyən iordaniyalı tarixçi Ömər Armuti bildirib.

Ömər Armuti deyib: "Səhər tezdən seçki məntəqələrində olduq. Məntəqələrdə seçicilər üçün hər şeyin yüksək səviyyədə təşkil edildiyinin şahidi oldum. Veb-kameraların quraşdırılması, siyasi partiyaların nümayəndələrinin prosesi izləməsi şəffaflığı daha da artırır. Seçkilər azad və sərbəst şəraitdə keçir. Parlament seçkilərinin belə uğurlu keçməsi bizi sevindirir. Bu seçkilər Azərbaycanın gələcək inkişafı baxımından önəm kəsb edir. Düşünürük ki, seçicilər layiqli namizədlərə seçəcəklər və Azərbaycanın gələcəyi daha parlaq olacaq. Azərbaycan xalqına, dövlətinə, hökumətinə nailiyyətlər arzulayıram".

# Türkiyə KİV-ləri Azərbaycanda keçirilən seçkiləri geniş işıqlandırır













***Türkiyənin aparıcı kütləvi informasiya vasitələri fevralın 9-da Azərbaycanda keçirilən Milli Məclisə seçkilərlə bağlı geniş materiallar yayırlar. Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin səsvermədə iştirakı öz əksini tapır.***

AZƏRTAC xəbər verir ki, Anadolu və DHA xəbər agentlikləri, "Hurriyet" qəzeti, "TRT HABER", "A HBR" televiziya kanalları və s. nüfuzlu KİV-lər türkdilli əhalini Azərbaycanda keçirilən seçkilər barədə davamlı məlumatlandırır. Bildirilir ki, səsvermə prosesi qanunauyğun şəkildə davam edir. Qeyd edək ki, qardaş ölkə mətbuatı parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsünün irəli sürülməsi ilə başlayan seçki prosesi davamlı olaraq diqqətdə saxlayır.

# AŞPA Ermənistan jurnalistlərinə qarşı təzyiqlərdən nəyə görə söhbət açmır?

## Yaxud Paşinyan iqtidarının KİV-lərə və jurnalist təşkilatlarına qarşı təzyiqləri - faktlar, sübutlar

***Zaman-zaman Azərbaycanın söz və ifadə azadlığına, KİV-lərin müstəqil, azad fəaliyyətinə qarşı böhtan və qərəz yanaşmaları edən AŞPA-nın bu dəfə eyni tərzdə çıxış etməsi, hesabat yayması, söz yox ki, bu sahədə fəaliyyət göstərən jurnalist cameəsini də hiddətləndirir. Elə də uzağa getməyərək, işğalçı və təcavüzkar ölkənin əvvəlki iqtidarını deyil, məhz Paşinyan hakimiyyətinin söz və ifadə azadlığına qarşı sərt davranışlarını, jurnalistlərin, bloqerlərin, ictimai fəalların təqiblərə məruz qalmalarını xatırlada bilərik. Təkcə ötən il Ermənistanda onlarla təqib, təhdid və hücum faktları baş verib ki, onlardan bir neçəsini bir daha diqqətə çatdırmaq istərdik.***






### Bloqer Artur Danielyan: “Bizim aktivistlər heç bir əsas olmadan polisə aparılır, saxlanılır və onlara qorxu atmosferi yaşadılır”

Misal üçün, ötən ilin yayında “Adekvad” ictimai təşkilatının təsisçisi, bloqer Artur Danielyan bəyan edib ki, onun təşkilatının fəalı Adamyanın evinə edilmiş hücum, o cümlədən, polis tərəfindən “Adekvad”ın 11 fəalının saxlanılması hakimiyyətin adıçəkilən jurnalist hərəkatının yolunun kəsilməsinə qarşı başladılan fəaliyyətdir.

Danielyan əlavə edib ki, mövcud təxribatlar barədə onlara çoxdan xəbərdarlıqlar edilib: “Hərəkatımıza qarşı növbəti hücum da bunu təsdiq edir. Bizim aktivistlər heç bir əsas olmadan polisə aparılır, saxlanılır və onlara qorxu atmosferi yaşadılır. Bütün bunlar aşkar manipulyasiyalardır”.

Bundan öncə isə, “Adekvad” hərəkatı bəyanat yaymışdı ki, 2019-cu ilin 9 iyuna keçən gecəsində təşkilatın 11 fəalı polis tərəfindən saxlanılmışdı. Məlumatda bildirilmişdi ki, bu günlərdə baş nazir “qara geyimli şəxslərə” hədə yağdırıb ki, bu da “Adekvad”ın bir müddət əvvəl, qara futbolkalardakı yürüşü ilə bağlı verilən siqnaldır. Ona görə də, hərəkat fəallarına qarşı hakimiyyət tərəfindən sərt təhdidlərə başlanılıb.

### Jurnalistlər Birliyinin sədri Satik Seyranyan: “Paşinyan əvvəlki hakimiyyətin tərzi-hərəkətinə uyğunlaşdı və eyni ruhda da davam edir”

Daha bir fakt isə Jurnalistlər Birliyinin sədri Satik Seyranyanın ötən il ölkədəki təzyiqlərlə bağlı verdiyi açıqlamasıdır. “Hakimiyyət yüksək tribunalardan Ermənistanda azad söz və mətbuat azadlığı barədə bəyanatlar verir, amma faktlar tamamilə əksini deyir” deyə bildirən Seyranyan qeyd edib ki, hazırda (təkcə 2019-cu ilin yayına qədər-R.R.) mətbuata qarşı 90-dan çox iddia qaldırılıb və bu vaxta qədər belə bir şey heç zaman baş verməmişdi. Hətta Serj Sarkisyan dönəmində bu cür hallara az-az rast gəlinirdi: “Hər bir dövrdə hakimiyyət söz azadlığına qarşı müəyyən tədbirlər görüb. Biz jurnalistlərə qarşı təzyiqlər və sair də görmüşük. Lakin biz gözləyirdik ki, bizim həmkarımız Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra mətbuata tamam başqa yanaşma nümayiş etdirəcək. Amma əfsus ki, o da, əvvəlki hakimiyyətin tərzi-hərəkətinə uyğunlaşdı və eyni ruhda da davam edir”.

Jurnalistlər Birliyinin sədri vurğulayıb ki, yüksək səviyyəli beynəlxalq tribunalarda hakimiyyət orqanları Ermənistanda görünməmiş söz və mətbuat azadlığının olduğunu elan edirlər, amma faktlar tamamilə başqa şeydən xəbər verir və bunun əksini təsdiq edir.

Seyranyanın sözlərinə görə, söz və mətbuat azadlığına edilən bu hücumlar təkcə mətbuat və media üçün deyil, həm də ictimaiyyət və siyasətçilər üçün bir işarə və bir siqnal olmalıdır.

### “Joxovurd” qəzetinin baş redaktoru Knar Manukyan: “Burada hər şeyi alt-üst ediblər, mənim kabinetimdə xaos hökm sürür”

Digər bir fakt isə, 2019-cu ilin sonlarına yaxın - dekabrın 19-na keçən gecə naməlum şəxslərin Ermənistanın “Joxovurd” qəzetinin redaksiyasına basqın etməsi ilə bağlıdır. Bu barədə informasiya yayan Rusiyanın TASS agentliyi xəbər verib ki, hadisə barədə nəşrin baş redaktoru Knar Manukyan danışıb. “Burada hər şeyi alt-üst ediblər, mənim kabinetimdə xaos hökm sürür. Mənə elə gəlir ki, naməlum şəxslər nəsə axtarıblar. Bunun nə olduğunu deyə bilmərəm, lakin bu, qarət cəhdi deyil, çünki bütün qiymətli əşyalar yerindədir” deyə Manukyan bildirib. Bütün bunlar mövcud faktların yalnız çox cüzi hissəsidir və Ermənistanda KİV-lərə, KİV nümayəndələrinə qarşı belə halların baş verdiyi halda, bu ölkəyə qarşı ağır söz deməyən AŞPA, istərsə də digər bəlli qurumların davranışlarının kökündə, birmənalı olaraq, qərəzin dayanması şübhəsizdir. Ona görə də, artıq əminliklə deyə bilərik ki, zaman-zaman Azərbaycana qarşı bənzər şər-böhtançı addımlara gedən AŞPA həmin baxışlarını ya dəyişməli, ya da Avropanın bir çox siyasi və s. məsələlərində söz sahibi olan Azərbaycana qarşı fəaliyyətinə yenidən nəzər salmalıdır. Çünki həqiqəti qoyub, yalan və böhtan yaymaq, bu təşkilatın get-gedə düşən nüfuzuna daha bir silinməz ləkə vurur!

**Rövşən RƏSULOV**

# Paşinyanın daxili qoşunları erməni xalqına qarşı



***Sirr deyil ki, Ermənistanda hakimiyyət dəyişikliyinə rəğmən, mövcud hakimiyyət öz reytinqini qoruyub-saxlamaq üçün əlində olan bütün imkanlardan maksimum şəkildə istifadə edir. Baş nazir Nikol Paşinyanın, hətta dövlət mövqelərində ehtiyat etdiyi insanları repressiyalara məruz qoymaq faktları üzə çıxmaqdadır.***

Bu barədə Ermənistan KİV-ləri məlumat yayır. Məsələn, “Arminianrekord” yazır ki, artıq Paşinyan silahlı qüvvələrin daxili qoşunlarını xalqa qarşı çıxarmaq qərarını verir: “Güc qalib gəlir, lakin onun qələbəsi azmüddətlidir” deyə yazan erməni saytı ABŞ prezidenti Abraxam Linkolnun sitatını gətirərək, işarə edir ki, çox yaxın günlərdə Paşinyan hakimiyyətinə qarşı kütləvi etiraz dalğası qalxacaq: “Bu dəfə ölkənin Konstitusiya Məhkəməsinin sədrinin, keçmiş Milli Təhlükəsizlik Xidməti rəisinin ardınca Ədliyyə naziri Rustam Badasyanın da təqiblərə məruz qalması ölkədaxili repressiyaların baş qaldırması ehtimallarını reallaşdırır. Məsələ ondadır ki, Badasyan hakimiyyətin adından çıxış edərək, parlamentdə erməni xalqına barmaq silkələyib. O, dövlətinin əsaslarının möhkəm olduğunu iddia edərək, qanun pozuntuları törədənlərin qarşısının daxili qoşunlar tərəfindən alınacağını bildirib”.

“Qoy kiminsə hünəri varsa, dövlətlə təhdid dilində danışsın” deyən erməni ədliyyə naziri bununla sübut edib ki, ona bu sözləri dedirdən Paşinyan reytinqinin aşağı düşməsindən ehtiyat edərək, xalqla güc dilində danışmağı qərara alıb.

STAT: “Əslində, bunu başa düşməmək çətin deyil. Lənətəgəlmiş Sarkisyan rejiminin yıxılması ölkədə yeni lənət sindromunu yaratdı. Yeni hakimiyyət rus standartlarından istifadə edərək, güc strukturlarının süngülərini yerli metodla xalqa sancmağa başlayıb: şantaj, təhdid və sairə ilə. Əgər ədliyyə naziri açıq şəkildə parlamentdə daxili qoşunların etirazlara qarşı çıxacağını bəyan edirsə, bu zaman hazırkı hakimiyyətin öndəki hakimiyyətdən hansı fərqi ola bilər?”

Əgər bütün bunları nəzərə alarıqsa, mövcud hakimiyyət, nəinki öz mövqeyini qoruyub-saxlamağa çalışır, eyni zamanda, özünün siyasi rəqiblərini, hətta güc yolu ilə kənarlaşdırmağa çalışır. Bu gün Ermənistanda siyasi barışıq mühiti, ümumiyyətlə, mövcud deyil. Hətta iqtisadiyyatda, sosial siyasətdə, həmçinin, xarici siyasətdə ciddi məğlubiyyətlər görünməkdədir. Bunu adıçəkilən erməni saytı da ortaya qoydu.

SİTAT: “Yeri gəlmişkən, biz bunu Nikol Paşinyanın beynəlxalq DAVOS İqtisadi Forumunda iştirak etməməyində də gördük. Onun, sadəcə deməyə sözü yox idi və yeni də yox idi. Belə də ki, sivil ölkə liderləri də onu görmək üçün tələsmirdilər. Çünki onlar bilirdilər ki, Paşinyan, nəinki erməni xalqını, həm də xarici ölkə rəhbərlərini və onların gözləntilərini doğrultmağa güc tapmayıb. Bu günkü İrəvanın “siyasəti” məhz budur”.

Beləliklə, erimənі saytının şərhçisi Tevos Arşakyanın fikirlərindən belə nəticə çıxarmaq olar ki, ölkədə yeni və daha kütləvi xalq etiirazı gözlənilir. Paşinyanın nağıl üzərində qurduğu əfsanə siyasəti, həqiqətən də, əfsanə olduğunu sübuta yetirir.

**RƏFİQƏ HÜSEYNOVA**

# Dövlət çevrilişi mövzusu Ermənistanın gündəmindən düşmür



Ermənistanda dövlət çevrilişi mövzusu ölkənin müxtəlif siyasi meydanlarında müzakirə olunmaqda davam edir. Bu barədə erməni mediasında da gündəlik yazılar, şərhlər və rəylər işıq üzü görməkdədir. Qeyd olunur ki, nə qədər maraqlı görünsə də, sözügedən mövzunu hakimiyyət də dəstəkləyir. Daha dəqiq desək, ölkədaxili siyasi böhranın mövcudluğu inkar olunmur və həqiqətən də, dövlət çevrilişinin baş verməsi an məsələsinə çevrilib.

### Hakimiyyət daha öncəki idarəçi sistem tərəfindən çox güclü pressinq altındadır

“Hər halda, hətta təhlükəsizlik şurasının katibi dərəcəsində dövlət çevrilişinə cəhd və onun qarşısının alınması barədə danışılıb” deyə Ermənistanın “1.in” informasiya saytı yazır. Maraqlıdır ki, sözügedən mövzuya toxunan erməni saytı onu da qeyd edir ki, siyasi təbliğat yanaşmasında mövzunun kütləviləşdirilməsi anlaşılandır. “Belə ki, hakimiyyət daha öncəki idarəçi sistem (keçmiş iqtidar-R.R.) tərəfindən çox güclü pressinq altındadır” yazan adıçəkilən sayt qeyd edir ki, burada maliyyə resursları, güclü təbliğat reallığı da mövcuddur ki, həmin sistem ictimai rəyi də özünə tərəf cəlb edə bilir: “Bütün problem ondadır ki, hazırda bumeranq effekti hiss olunmaqdadır... Məsələ həm də bundadır ki, keçmiş sistemin ümumi strategiyası mübahisəsiz olaraq məsələnin mahiyyəti odur ki, ictimai rəyin hiddəti bahasına onlar mövcud etapda və ictimai atmosferdə - davamlı psixoloji qorxu və həyəcan çərçivəsində, yaxud təlükənin beş dəqiqəlik məsafəsində hər şey əldə edə bilirlər”.

### Ermənistanda yalnız keçmiş hakimiyyət uduzmayıb

Postinqilab reallığında və qiymətləndirilməsində belə nəticəyə gəlmək olar ki, inqilabı Ermənistanda yalnız keçmiş hakimiyyət uduzmayıb. Ya da, öncəki hakimiyyət həmin vaxtlar odioz və oliqarxik dairələrin yaxınları hesab edilən keçmiş və hazırkı məmurlardan ibarət olmayıb, həm də müəyyən koalisiyadankənar element və seqmentləri də təşkil edib” .

Beləliklə, erməni ictimai rəyində həm də belə bir fikir fotmalaşır ki, Nikol Paşinyan iqtidarı daxilindəki müəyyən postlarda keçmiş hakimiyyətin adamları oturmağı bacarıblar. Onlar sözdə mövcud hakimiyyəti dəstəklədiklərini göstərsələr də, əslində, keçmiş hakim sistemin gizli tapşırıqlarını icra edib, dövlət çevrilişi mövzusunu gündəmdə saxlaya bilirlər.

**Rövşən RƏSULOV**

***“2014 - 2018-ci illər üçün Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə haqqında MFP-nin məqsədləri və həyata keçirilmə prinsipləri”ndən biri “2.1.5. insan alveri qurbanlarının müdafiəsi”, hüquqlarının bərpası və sosial reabilitasiyasının təmin edilməsi”dir. Bu, insan alveri qurbanlarını müdafiə etmək” məqsədini daşımış 2008 - 2013-cü illər üçün MFP-də də təsbit edilmişdir. İnsan alveri ilə mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun 1.0.10-cu maddəsi əməkçi miqrantları əhatə etmir. Onlar, insan alverinin qurbanı olduqları təqdirdə, beynəlxalq hüquqi sənədlərə əsasən, yalnız müdafiə və yardım almaq hüququna malikdirlər.***

# Azərbaycan Respublikasında qurbanlara yardım

Azərbaycan Respublikası “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 123 nömrəli 11 avqust 2009-cu qərarı ilə, Milli Əlaqələndiricinin nəzarəti altında həyata keçirilməsi üçün MİM-i formal olaraq təsis etmişdir. Bu qərar “İnsan alverinə qarşı mübarizə üzrə 2009 - 2013-cü illər üçün Azərbaycan Respublikasının Milli Fəaliyyət Planına” uyğun olaraq, hazırlanmış qaydaları müəyyən etmişdir və o, insan alveri qurbanları ilə bağlı milli istiqamətləndirmə mexanizminin həyata keçirilməsi üçün qaydaları təyin edir.

Ümumi müddəaların 1-ci bəndində deyilir:

İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin əsas məqsədləri qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaların formalaşdırılmasıdır.

İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi aşağıdakı prinsiplər rəhbər tutulmaqla həyata keçirilir:

qurbanların hüquq və azadlıqlarının təmin edilməsi;

qurbanlar haqqında məlumatların konfidensiallığının təmin edilməsi;

müdafiə və sosial reabilitasiya tədbirlərinin tətbiqində qurbanların bərabərliyinin təmin edilməsi;

qurbanların ehtiyaclarına uyğun müdafiə və sosial reabilitasiya tədbirlərinin fərdiliyinin təmin edilməsi;

dövlət orqanları və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əməkdaşlığının təmin edilməsi;

regional və beynəlxalq əməkdaşlığın səmərəliliyinin təmin edilməsi”.

İnsan alveri ilə mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun IV Fəsli “İnsan alveri qurbanlarının sosial reabilitasiyası və müdafiəsi”ni müəyyən edir. 2013-cü ildə tətbiq edilən 14-1-ci maddə insan alveri qurbanlarına “bərpa və fikirləşmə müddətindən yararlanmaq” imkanını verir.

14-1-ci maddədə deyilir:

İnsan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilir.

Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanı təhlükəsizlik və müdafiə ehtiyaclarının təmin edilməsi, fiziki, psixoloji və sosial vəziyyətinin bərpası üçün bu Qanunun 12-ci maddəsində nəzərdə tutulmuş xüsusi müəssisələrin xidmətlərindən istifadə edə bilər.

Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanına Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir.

Şəxsin insan alverinin qurbanı olmadığı müəyyənləşdirildikdə, bərpa və fikirləşmə müddəti verilmir, bu müddət başlandıqda isə dayandırılır.

14-1-ci maddədə dəqiq şəkildə müəyyən edilmir ki, “şəxsin insan alveri qurbanı olduğunu güman etmək üçün məntiqli əsaslar mövcud olduqda” bərpa və fikirləşmə müddəti verilməlidir. Azərbaycan qanununda “insan alveri qurbanı”nın anlayışına “insan alverinə məruz qaldığı güman edilən şəxs” aiddir. Buna görə də, AŞ Konvensiyasına uyğun olmaq üçün Azərbaycan qanununun 14-1-ci maddəsi “insan alverinin qurbanı olduqlarını güman etmək üçün məntiqli əsasların mövcud olduğu” mümkün qurbanları əhatə edəcək şəkildə təfsir olunmalıdır”.

İnsan alveri ilə mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsi Azərbaycan Respublikasında istiqamətləndirmə mexanizmi üçün hüquqi əsası təmin edir. 19 noyabr 2009-cu il tarixdə Nazirlər Kabinetinin qərarı ilə qəbul edilmiş “İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları”nda nəzərdə tutulur ki, yardım göstərilərkən, uşağın qanuni maraqlarına önəm verilməli və Azərbaycan qanunvericiliyinə və müvafiq beynəlxalq müqavilələrə uyğun olaraq uşaq hüquqlarını qorumaq üçün bütün zəruri tədbirlər görülməlidir.

İnsan alveri ilə mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun “İnsan alverinin qurbanı olmuş uşaqlara yardım göstərilməsi” başlıqlı 16-cı maddəsində deyilir:

16.1 İnsan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən, onun mənafeləri üstün tutulmalı, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa, “Uşaq hüquqları haqqında” BMT-nin Konvensiyasına, habelə Azərbaycan Respublikasının digər qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq uşağın hüquqlarının və qanuni maraqlarının qorunması üçün bütün tədbirlər görülməlidir.

16-cı maddədə uşağın müdafiəsi üçün məlumat vermə mexanizmləri, sığınacaqda yerləşdirmə üçün tədbirlər və uşaq alveri qurbanlarının sosial reabilitasiyası nəzərdə tutulur. İnsan alveri ilə mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun “İnsan alverinin qurbanı olan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin repatriasiyası” başlıqlı 20-ci maddəsində deyilir:

20.1. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir.

20.2. Bu qanunun 20.1-ci maddəsində göstərilən müddət başa çatdıqda, lakin əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alveri ilə bağlı cinayət işləri üzrə cinayət təqibi orqanlarına yardım göstərdikdə, həmin şəxs barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma cinayət təqibi başa çatanadək tətbiq olunmur”.

2013-cü ilin sentyabr ayında Nazirlər Kabineti qurban kimi tanınmış insanlara bir il müddətinə müvəqqəti yaşayış üçün icazələrin verilməsinə (qurbanın müraciəti əsasında) imkan verən insan alverinin qurbanı olmuş əcnəbi şəxslərin repatriasiyasına dair insan alveri əleyhinə qanunvericiliyə düəzlişləri təsdiq etmişdir (2.3-cü maddə) .

Qanunvericilikdə deyilir:

“İnsan alverinin qurbanı hesab edilmiş hər bir əcnəbi vətəndaşa ölkədən çıxarılma tətbiq edilməyərək avtomatik şəkildə verilən bir il müddətində ölkədə qalma müddəti başa çatdıqda, qurban cinayət araşdırmasına / proseslərinə kömək etmək qərarını verərsə, həmin şəxs cinayət prosesləri başa çatanadək cəza tətbiq edilmədən Azərbaycan Respublikasında qala bilər”.

Uşaqlar yalnız onların ən vacib maraqlarına uyğun olduqda və yenidən insan alverinin qurbanına çevrilmə riski olmadıqda repatriasiya olunmalıdır. Uşaq 10 yaşdan böyük olduqda, onun rəyi soruşulmalı və bu, nəzərə alınmalıdır. Uşaq qurbanın repatriasiyasından əvvəl risk qiymətləndirilməsi aparılmalıdır. Bura yenidən insan alverinə məruz qalma riski, əməli törədənlər tərəfindən hədələr və yardımın mövcudluğu aiddir.

“İnsan alveri ilə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsində deyilir:

İnsan alveri qurbanlarının şəxsi və ailə həyatının sirri olan məlumatların yayılması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur. İnsan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yarada bilən məlumat konfidensial hesab edilir və onun yayılması qadağandır.

İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları və ya onun barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları qanunsuz olaraq toplama, yaxud bu məlumatları qəsdən yayma Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

2009 - 2013-cü illər üçün Azərbaycanın Milli Fəaliyyət Planının insan alveri cinayətləri əleyhinə təqibləri gücləndirmə” adlı 6-cı fəslində “məhkəmə proseslərində qurbanların müdafiəsinə vəkilləri cəlb etmək”lə bağlı müddəa daxil edilmişdir. Bundan əlavə, MFP-də Hökumətdən qurbanlara göstərilən hüquqi yardımın effektiv, uzunmüddətli və davamlı olmasını təmin etmək tələb olunurdu. İnsan alveri qurbanları üçün Milli İstiqamətləndirmə Mexanizmi Qaydalarının “Qurbanların hüquqlarının müdafiəsi” başlıqlı 3-cü maddəsində deyilir:

3.1. Qurbanlar pulsuz hüquqi yardım almaq hüququna malikdirlər. Qurbanlar pulsuz hüquqi yardım və bu yardımı göstərən təşkilatlar barədə xüsusi polis qurumu və qeyri-hökumət təşkilatlarından məlumat alırlar”.

İnsan alveri qurbanına qurbanın qohumu və ya Vəkillər Assosiasiyasının üzvü ilə təmsil olunmaq imkanını vermək üçün 2014-cü ilin oktyabr ayında Azərbaycanda qanuna düzəliş edilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Əli Kərimli - gerçək avantüraçılıq nümunəsi!

## *Sağlam düşüncəli insanlar artıq onun həbs olunmasını tələb etməlidir!*



***Kifayət qədər faktlara əsaslanan amillərdən biri də budur ki, birillik AXC-Müsavat hakimiyyətinin bəzi təmsilçiləri istər iqtidarda olduqları dövrdə, istərsə də müxalifətdə olduqları zaman yalnız anti-milli, dağıdıcı mövqe tutaraq, Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaq məqsədilə əməli fəaliyyət göstəriblər. Bu sıralamada isə ilk yeri tutanlardan biri və birincisi Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlidir. O da sirr deyil ki, müxalifətçi partiya sədri adı altında maskalanan Kərimli və onun yandaşları, ümumiyyətlə yaxın ətrafı qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməsidir. Bu baxımdan, biz çoxsaylı sübutlar gətirməklə nəticəyə gələ bilərik ki, Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Artıq bu, bir aksiomaya çevrilib.***

### Azərbaycanın danışıqlar masası arxasında mühüm üstünlük əldə etdiyi məqamda Əli Kərimli daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürür

Digər tərəfdən, o da bəllidir ki, uzun müddətdir ki, AXCP adlı pərdələnmiş təşkilat başda olmaqla, "Azadlıq" qəzeti, eləcə də, sosial şəbəkələrdə fəaliyyət göstərən məlum qrup Ə.Kərimlinin sifarişlərinə uyğun olaraq ölkə və xalq üçün ən taleyüklü məqamlarda belə düşmənin informasiya təxribatlarına bəhanə, stimul və dəstək verirlər. Onlar qınanıldıqda isə, Kərimlinin ən çox sevdiyi "silah" - söyüş və təhqir kampaniyasına start verilir. Sadə bir fakta əsaslanaq. 2016-cı il aprel ayının ilk dörd günündə cəbhədə baş verən məlum hərbi əməliyyatlardan sonra ictimai rəy məhz bu faktorun şahidinə çevrildi. Daha dəqiq desək, heç də təsadüfi deyil ki, Azərbaycanın həm cəbhə xəttində, həm də danışıqlar masası arxasında mühüm üstünlük əldə etdiyi indiki məqamda Ə.Kərimli və onun yaxın ətrafı daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməyə başlayıb. Əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalqla hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirməkdir.

### Beynəlxalq ictimaiyyət ölkəmizin davamlı xarakter daşıyan erməni təxribatlarına cavab hüququnu tanıyıb və dəstək verib!

Halbuki Azərbaycanın şanlı və rəşadətli silahlı qüvvələri işğalçı-təcavüzkar Ermənistan ordusuna sarsıdıcı zərbə vurub, mühüm strateji yüksəkliklərə nəzarəti ələ keçirib və Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilib. Məğlub və qorxaq düşmən həm canlı qüvvədə, həm də texnikada böyük itkiyə məruz qalıb və xilas yolu axtarmağa can atır. Ancaq işğalçılar diplomatik cəhətdən də sarsıdıcı məğlubiyyətlərə məruz qalmaqdadır. Xüsusilə, beynəlxalq ictimaiyyət məlum olaylardan sonra münaqişənin yenidən alovlanması səbəblərinə obyektiv yanaşıb, ölkəmizin davamlı xarakter daşıyan erməni təxribatlarına cavab hüququnu tanıyıb və dəstək verib. ABŞ-ın yüksək siyasi dairələri və diplomatları, Rusiya dairələri, BMT, AŞPA, ATƏT və s. kimi nüfuzu təşkilatlar Ermənistanı işğal altında saxladığı ərazilərdən çıxmağa səslədi. Məhz bununla da Azərbaycan uzun illərdən bəri formalaşmış "məğlub tərəf" stereotipini sındırdı və isbatladı ki, istənilən anda torpaqları geri almaq iqtidarına malikdir.

### Bu kimi əhəmiyyətli faktorları təhlil edib, reallığı doğru şəkildə qiymətləndirmələri əvəzinə...

Başqa tərəfdən, Azərbaycan beynəlxalq ictimaiyyətin israrlı müraciətlərini nəzərə alaraq, hərbi əməliyyatları dayandırıb və sülh prosesinə sadiqliyini növbəti dəfə nümayiş etdirib ki, bu amil də sonrakı proseslərdə öz üstünlüyünü qoruyub-saxlayacaq, danışıqlara başlanarsa, ölkəmiz sözügedən məqamı beynəlxalq aləmin diqqətinə çatdıracaqdır. Bu addım beynəlxalq ictimaiyyət tərəfindən olduqca yüksək qiymətləndirilib. Ancaq Azərbaycanın sülh tərəfdarı qismində siyasət yürütməsinə rəğmən, Ermənistan əldə olunmuş son atəşkəs rejiminə riayət etmir. Təbii ki, belə olan halda zaman və nəticə məhz bizim dövlətimizin xeyrinə işləmiş olur.

Hazırda Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək vermək əvəzinə, Əli Kərimli və onun rəhbərlik etdiyi AXCP, onun sosial mediadakı söyüş qrupları tam əks-mövqe tutaraq, erməni dəyirmanına su tökməklə məşğuldurlar. Bununla, qaragüruhçu dəstə xalqın Azərbaycan Prezidentinin yürütdüyü siyasətə etimadının və dəstəyinin daha da yüksəldiyi, cəmiyyətlə hakimiyyət arasında birliyin daha da sıxlaşdığı, Milli Ordumuzun zəfərinin xalqda yüksək əhval-ruhiyyə və Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunacağına böyük inam yaratdığı bir vaxtda, Ə.Kərimli düşmən xislətini bir daha açıq şəkildə ortaya qoymuş olur. Əsl düşmən kimi uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə!

### Əli Kərimli Azərbaycan gənclərinin qanına susamış əsl düşmən və Vətən xainidir!

Ə.Kərimli hərbi əməliyyatların davam etdirilməsi, müharibənin daha da alovlanması ilə bağlı populist çağırışlar edir, daxildə vəziyyəti gərginləşdirməklə məntiqi yekuna yaxınlaşan münaqişənin ədalətli şəkildə, sülh yolu ilə həllinə zərbə vurmağa çalışır. Belə bir mühüm dönüş nöqtəsində müharibə tələb edən Əli Kərimli minlərlə Azərbaycan gəncinin qanına susamış əsl düşmən, Vətən xaini və canidir. Artıq Ə.Kərimli və onun tərəfdarlarının Azərbaycanın milli maraqlarına zidd, ermənipərəst fəaliyyətinə son qoymağın vaxtı çoxdan çatıb. Cəzasızlıq isə onun dövlətçilik maraqlarımız qarşısında daha da quduzlaşmasına səbəb olur.

Əlbəttə ki, belə bir ərəfədə öz rəşadətli ordusunun, əsgərlərinin, eləcə də Ali Baş Komandanının ətrafında sıx birləşdiyini əməli nəticələrlə sübuta yetirən müxtəlif sosial təbəqələrin nümayəndələri, ziyalılar, gənclər ayağa qalxmalı, satqın və xəyanətkar Ə.Kərimliyə öz yerini göstərməlidirlər! Azərbaycan dövləti davamlı şəkildə milli maraqlara zərbə vurmaqla ölkənin siyasi həyatında özlərinə yer etmiş Ə.Kərimli kimi şəxsi ambisiyasını güdən populistlərə, avantüraçılara, anti-milli ünsürlərə bundan sonra da meydan verməməli və onların barəsində sərt ölçü götürməlidir. O, həbs olunmalı, layiqli cəzasını almalı, ən yaxşı halda isə ölkədən hüdudlarından çıxarılmalıdır. Belələrinə Azərbaycanda yer yoxdur!

*Rövşən RƏSULOV*

## Belçikada fırtına səbəbindən uçuşlar təxirə salınıb



Belçikada "Ciara" fırtınası səbəbindən bir çox şirkət uçuşlarını təxirə salıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Brüssel Hava Limanı səlahiyyətlilərinin verdiyi açıqlamaya görə, saatda təxminən 110 kilometr sürətlə əsən külək səbəbindən hava limanında yaranan nasazlıqlar nəticəsində "British Airways", "Lufthansa" və "KLM" də daxil olmaqla, 60 reysinin uçuşu təxirə salınıb. Qeyd edək ki, sərnişinlərin uçuşları barədə məlumatlar veb saytında veriləcək.

## Rusiya Hələbi bombaladı, 2 nəfər öldü

Rusiya qırıcıları Hələbin Kefer Nuran, Kefer Naha və Cemyiet Rehhal yaşayış məntəqələrinə hücum edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Mülki Müdafiə mənbələrindən əldə edilən məlumata görə, Rusiya Hələbin Kefer Nuran kəndinə etdiyi hava hücumlarında 2 mülki şəxs həyatını itirib, 10 mülki şəxs yaralanıb. Qeyd edək ki, Mülki Müdafiə qrupları hadisə yerində axtarış-xilasetmə işlərini davam etdirirlər.



## Yekun sözü xalq deyir

**RƏFİQƏ**

Gözlənildiyi kimi, 9 fevral parlament seçkilərinə yüksək səviyyədə aparılan hazırlıq seçkilərin nəticələrinin də yüksək olacağını təsdiqləyir. Bunu Avropa Parlamenti, AŞPA, MDB Müşahidə Şurası və s. kimi nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə gələrək seçki missiyalarının seçkilərin obyektiv keçirilməsi ilə bağlı fikirləri də təsdiq edir. Ümumiyyətlə, seçkilərin keçirildiyi şərait, nəticələrin obyektivliyi hər bir ölkədə demokratiyanın hansı səviyyədə inkişaf etdiyini göstərən mühüm faktorlardandır. Bununla da əslində gənc, müstəqil və öz sözünü deyən dövlət olmaqla yanaşı, Azərbaycan keçirilən bütün seçkilərdə dünyaya ən müasir standartlara cavab verən seçki nümunəsi göstərib və növbəti parlament seçkisində də bunun şahidi olacaq. Təbii ki, baş tutacaq növbəti seçkinin də ölkəmizin demokratik prinsiplərin, ənənələrin bərqərar olma yönündə böyük uğurlar əldə edəcəyini bir daha təsdiqləyəcək. Beləliklə, Milli Məclisə keçirilən seçki şəffaflığı və rəqabətliliyi ilə beynəlxalq müşahidəçilərin diqqətini cəlb edib.

Seçkilərin ədalətli keçiriləcəyi qabaqcadan heç kimdə şübhə doğurmur. Çünki dövlət bütün namizədlərin seçkiqabağı kampaniyanı sərbəst və aktiv şəkildə həyata keçirməsi üçün hər bir şəraiti yaratmışdı. Müxalifət partiyalarının da bu və ya digər şəkildə prosesdə iştirak etməsi, siyasi mövqeyindən asılı olmayaraq bütün namizədlərə bərabər şəraitin yaradılması, eləcə də, hər bir namizədə demokratik tələblərə cavab verən təbliğat-təşviqat hüququnun verilməsi prosesin obyektiv keçirilməsi üçün lazım olan ilkin şəraiti yaradıb. Bunu ölkəmizdə seçkiöncəsi mühiti müşahidə edən müxtəlif beynəlxalq təşkilatlar da yaradılmış şəraitdən razı qaldıqlarını vurğulayırlar.

Daha bir mühüm məqam isə Yeni Azərbaycan Partiyasının seçki kampaniyasını ictimai marağa səbəb ola biləcək tərzdə keçirməsi oldu. Ancaq ortada daha bir amil kifayət qədər özünü göstərir ki, YAP namizədlərindən fərqli olaraq müxalifət namizədlərinin təbliğat kampaniyasında passivlik və yaradılan şəraitdən tam yararlanmama halları mövcuddur. Məsələn, hakim partiyanın namizədləri mediada geniş təbliğat işi aparırsa, müxalifət namizədləri bu istiqamətdə passivliyi ilə seçilirlər. Halbuki bütün namizədlərə bərabər şərait yaradılıb. Xalqın partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası əvvəlki seçkilərdə olduğu kimi bu seçkilərdə də "Daha güclü Azərbaycan naminə" devizini seçərkən, həm də qarşıda görüləcək daha çox işlərin olduğunu sərgiləməklə yanaşı, Azərbaycanın dünya ölkələri arasında lider dövlətə çevrilməsi istiqamətində də addımlar atacağını göstərir. Məhz parlament seçkilərində əldə ediləcək zəfər və qalibiyyət də bu amili özündə kifayət qədər ehtiva edir.

Belə çıxır ki, iqtidar müxalifətin qalib gəlməsi üçün onlara imkan yaratmalıdır. Məgər bu, YAP-ın borcudur? Yaxud, kiminsə yarışda qalib gəlməsi üçün rəqib tərəf ona imkan yaratmalıdır? Qəribə məntiq onların bütün bu məsələlərə nə qədər qeyri-ciddi yanaşdıqlarını göstərir. Əgər müxalifət partiyaları cəmiyyəti özlərinin haqlı olduğuna inandıra bilsəydilər, kiminsə seçkidə qələbə qazanmaq üçün şərait yaratmasına ehtiyac qalmazdı. 1993-cü ildə YAP-ın hakimiyyətə gəlməsi üçün o zaman hakimiyyətdə olan qüvvələr şərait yaratmışdılar? Bu imkanı Xalq Cəbhəsi, yoxsa Müsavatmı yaratdı? Yaxud meydanlarda aksiyalar, mitinqlər etmək çağırış edilirdi? Bir məqamı unutmaq olmaz ki, qanunvericilik seçkidə iştirak edən bütün partiyalar üçündür.

Bir də tənqidçilik müxalifətçilik deyil. Yalnız tənqid əsasında heç bir partiya özünü təsdiq edə bilməz. Ona görə də Azərbaycan cəmiyyəti müxalifətin ciddiliyinə inanmır. Bu gün uğursuzluqlarını aksiyalar keçirməkdə görürlərsə, çox yanılırlar. Bir də müxalifət insanların əhəmiyyətli hissəsinin iştirak edəcəyi aksiya keçirmək iqtidarında olsaydı, çoxdan bunu etmişdi. Lakin müxalifət bu reallığı hələ də dərk etmir. Unutmaq olmaz ki, iqtidarın da, müxalifətin də güc mənbəyi yalnız xalqın dəstəyidir, müxalifət isə bu birlikdən çoxdan kənarlaşdırılıb. Bunun günahını iqtidarda yox, özündə axtarmalıdır. Bütün bunlara baxmayaraq, 9 fevralda keçiriləcək parlament seçkiləri günü Azərbaycan demokratik dövlətçilik yolunda inamla irəlilədiyini bir daha sübut edəcək və bu seçki ölkəmizdə demokratiyanın növbəti qələbəsi kimi dəyərləndiriləcəkdir. Çünki yekun sözü məhz xalq deyir. Biz bunun dəfələrlə şahidi olmuşuq.

# İNSAN HÜQUQLARININ POZULMASI:
# Ev köləliyi və qurbanların pozulması

***Çox güman ki, ev köləliyi üçün insan alveri qurbanlarının əksəriyyəti heç vaxt müəyyən olunmur və ya onlara yardım göstərilmir. Ev köləliyinə dair məlumatın olmaması və bunun başa düşülməməsi dövlətlərin və müvafiq peşədə çalışanların fəaliyyətini məhdudlaşdırır. Ev köləliyinin indikatorları ailə ilə birgə yaşama; Ailənin qalan üzvləri ilə birgə yemək yeməmə; Özəl yerin olmaması; Ümumi və ya qeyri-uyğun məkanda qalma; Hətta hələ də işəgötürənin evində yaşasa da, işəgötürən tərəfindən itkin düşmüş kimi məlumat verilmə; Sosial səbəblər üçün evi heç vaxt tərk etməmə və ya nadir hallarda tərk etmə; İşəgötürən olmadan heç vaxt evi tərketməmə; Yeməyə yalnız qida atqıntılarının verilməsi; Təhqirlərə, istismara, hədə-qorxulara və ya zorakılığa məruzqalma.***

UNODC-nin 2014-cü il üçün Qlobal Hesabatında deyilir ki, dilənçiliyə məcbur etmə üçün uşaq alveri bəzi yerlərdə böyük bir problemdir. Dilənçilik həm də yaşlı insanlar arasında artmaqdadır. Dilənçilik və xırda cinayətkarlığın indikatorları ictimai yerlərdə və ictimai nəqliyyatda dilənçilik etməyə meylli olan uşaqlar, yaşlı insanlar və ya əlillər; Qanunsuz dərman (narkotik) daşıyan və ya satan uşaqlar; Əlil etmənin nəticəsi olduğu güman edilən fiziki zədələr; Eyni milliyyətdən və ya etnik mənsubiyyəti olan uşaqların yalnız bir neçə yaşlı insanla böyük qruplar şəklində hərəkət etməsi; Eyni milliyyətdən və ya etnik mənsubiyyəti olan yaşlı insan tərəfindən tapılan müşayiətsiz azyaşlılar; İctimai nəqliyyatda qruplar şəklində hərəkət etmə: məsələn, onlar qatarlarda birgə hərəkət edə və enə bilərlər; Mütəşəkkil cinayətkar dəstələrin əməllərində iştirak etmə; Eyni milliyyətdən və etnik mənsubiyyəti olan üzvlərdən ibarət cinayətkar dəstələrə mənsubolma; Eyni yaşlı himayəçisi olan uşaqlardan ibarət böyük qrupların üzvü olma; Kifayət qədər toplamama və ya oğurluq etməməyə görə cəzalanma cinayətkar dəstənin üzvləri ilə birgə yaşama; Təyinat ölkəyə cinayətkar dəstənin üzvləri ilə birgə getmə; Onların valideynləri olmayan yaşlı insanlarla dəstənin üzvləri kimi bir yerdə yaşama; Gündəlik iri qruplar şəklində və böyük məsafələrdə hərəkətetmə Cinayətkar dəstələrlə bağlı cinayətkarlığın yeni formalarının meydana çıxması; Qurban olduğu ehtimal edilən qrupun müəyyən müddət ərzində bir sıra ölkələr boyu hərəkət etdiyinə dair dəlillər; Ehtimal edilən qurbanların başqa bir ölkədə dilənçiliyə və ya xırda cinayətkarlığa cəlb olunmalarına dair dəlillər.

İstismarın indikatorları istismar halını müəyyənləşdirmə və istismar anlayışına aydınlıq gətirmək üçün istismarın indikatorları mühüm əhəmiyyət daşıyır. Bu, xüsusilə, məcburi əmək üçün istismar hallarında uyğundur və belə olan halda əməyin istismarını və məcburi əməyi fərqləndirmək çətin ola bilər. Buna görə də, insan alveri indikatorlarından istifadə istismar halını müəyyənləşdirməyə kömək edə bilər. 121 Polşalı xadimə qadınla bağlı il: Ölkə: Niderland Məhkəmə: Haaqa rayon Məhkəməsi: Məhkum etmə tarixi: 5 oktyabr 2007-ci il: İstismarın məqsədu: məcburi əmək və ya xidmətlər. Bu işdə, müttəhim insan alverinə kömək etməkdə və təhrik etməkdə təqsirləndirirlir (ittiham nr.1) Hollandiya Cinayət Məcəlləsinin 273f (1)(I)(IV) və (VI) maddəsi). Müttəhim bir neçə polşalı qadını Niderlandda gəlmək və orada ev qulluqçusu kimi işləmək üçün cəlb etmiş və onlara xadimə kimi iş təşkil etmişdir. İzahlı Memorandumda deyilir ki, bu maddənin məqsədi üçün istismar dedikdə köləliyin müasir formaları nəzərdə tutulur. Qanunverici orqan istismar konsepsiyası üzrə əlavə anlayışın verilməsini məhkəmələrin öhdəsinə buraxmışdır. Bu məhkəmə belə bir fikirdədir ki, istismar konsepsiyasının izahı, istismarın əlaməti ola biləcək bir sıra (bununla bitməyərək) indikatorların sadalandığı Hollandiyalı Milli Məruzəçinin insan alverinə dair beşinci hesabatına uyğunlaşdırılmalıdır. Məhkəmə belə bir rəy vermişdir ki, burada aldadılma, pis iş şəraiti və xeyli asılılıqları göstərən məqamlar vardır. Buna baxmayaraq, Məhkəmənin qərarında əsas insan hüquqlarının pozulmasını təşkil edə biləcək həddən artıq işlədilmə vəziyyəti ilə bağlı heç bir sual yoxdur.

Uşaq alverinin müəyyənləşdirilməsi uşaq qurbanlar müəyyənləşdirilərkən, uşaq qurbanların xüsusi ehtiyaclarına cavab vermək, şərait təhlükəsiz olduqda onları öz vətənlərinə qaytarmaq və prosesin ləyaqətli tərzdə getməsini və qayğı ilə və uşağın ən ümdə maraqlarına uyğun idarə olunmasını təmin etmək" məqsədilə səylərin sosial işçi və ya uşaq müdafiə orqanları ilə əlaqələndirilməsi zəruri ola bilər. 122 3.4.1 Uşaq alverinin indikatorları insan alverinin uşaq qurbanlarının indikatorları Valideynləri və ya himayəçiləri ilə əlaqənin olmaması; Qorxudulmuş görkəm və ya öz yaşında olan uşaqlar üçün səciyyəvi olan davranışa uyğun gəlməyən tərzdə davranma; İşdən kənarda həmyaşıd dostların olmaması; Təhsilə çıxış imkanının olmaması; Oynamaq üçün vaxtın olmaması; Digər uşaqlardan ayrı və standarta uyğun olmayan yerlərdə yaşama; Ailənin digər üzvlərindən ayrı yemək yemə; Yemək üçün yalnız qida tullantılarının verilməsi; Uşaqlar üçün uyğun olmayan işə cəlb edilmə; Yaşlıların müşayiəti olmadan harasa getmə; Qohum olmayan şəxslərlə qrup şəklində harasa getmə; Adətən fiziki əmək və ya cinsi xidmətlər göstərmək üçün geyinilən və uşağın ölçüsünə uyğunlaşdırılmış geyimin olması; Fahişəxanalar və fabriklər kimi qeyri-uyğun yerlərdə oyuncaqların, çarpayıların və uşaq geyimlərinin olması; Yaşlı insan tərəfindən müşayiətsiz uşağın tapıldığının iddia edilməsi; Taksi çağırmaq üçün telefon nömrələrini gəzdirən müşayiətsiz uşaqların aşkar olunması; Qanunsuz övladlığa götürülmə hallarının aşkar edilməsi. UNODC (2014) Mərkəzi Asiyanın hüquq-mühafizə heyətləri üçün insan alveri və miqrant qaçaqmalçılığı ilə bağlı hallara dair standart fəaliyyət prosedurlarına dair əyani vəsait. səh.37 3.5 Qurbanlara yardım Qurbanlara yardım, AŞ Konvensiyasının 4-cü maddəsindəki qurban anlayışına uyğun olaraq, insan alveri nəticəsində istismarın bütün formalarının potensial qurbanları üçün təmin edilməlidir. İnsan alverinin potensial qurbanları ilə inam yaradan münasibətlər qurularkən qurbana önəm verilən yanaşma tətbiq edilərək, onlar müvafiq xidmətlərə yönəldilməli və onlara öz hüquqları barədə məlumat verilməlidir. Hər bir potensial qurbana onun işi, hüquqları və mümkün növbəti addımlar barədə tam məlumat verilməlidir. BMT-nin İnsan Alverinə dair Protokolun 2(b)-ci maddəsində deyilir ki, protokolun məqsədlərindən biri: (b) İnsan alveri qurbanlarının insan hüquqlarına tam hörmətlə yanaşmaqla onları müdafiə etmək və onlara yardım göstərməkdən ibarətdir". Bu müddəa, BMT-nin İnsan Alverinə dair Protokolunda "İnsan alverinin qurbanlarına yardım" və onların müdafiəsi" üzrə öhdəlikləri müəyyənləşdirən 6-cı maddə ilə də dəstəklənir. Qurbanlara yardımın vacibliyi AŞ Konvensiyası və Aİ-nin 2011/36/EU nömrəli Direktivində də qeyd olunur. Bu beynəlxalq hüquqi sənədlərin hər ikisində, qurbanların insan hüquqlarını qorumaq üçün məcburi müddəaları təmin etməklə insan alverinə qarşı mübarizə aparmaq öhdəliyi təsbit edilir. Bu məcburi müddəalar həm transmilli, həm də daxildə, dövlətin sərhədləri hüdudlarında insan alverinə məruz qalmış qurbanlara tətbiq edilir. AŞ Konvensiyasının 1(b) maddəsində Konvensiyanın əsas məqsədlərindən biri qeyd olunur: insan alveri qurbanlarının hüquqlarının qorunması, qurbanların və şahidlərin müdafiə edilməsi üzrə hərtərəfli çərçivənin işlənib hazırlanması, gender bərabərliyini təmin etməklə qurbanlara və şahidlərə kömək göstərilməsi, habelə səmərəli istintaqın və mühakimənin təmin edilməsi". Direktivin 11-ci maddəsində insan alveri qurbanlarına yardım və dəstəyin" anlayışı verilir və 12-ci maddə cinayət araşdırmasında və proseslərində insan alveri qurbanlarının müdafiəsinin" anlayışı verilir. Qurbanların müdafiəsi qurbanların onların insan hüquqlarına hörmətlə yanaşılması hüququ vardır və onlar, öz müqəddəratını təyin etmə hüququ ilə, müdafiə, təhlükəsizlik və fərdi qayğı ilə təmin edilməlidirlər. Onlara tam məlumat verilməli, qurban tam və məlumatlı şəkildə razılığı alınmalı və onlara qarşı ayrıseçkiliyə yol verilməməlidir. Onların konfidensiallıq hüququna riayət edilməlidir. Qurbanların müdafiəsi həmişə prioritet məsələdir və cinayət araşdırmasına başlamazdan əvvəl hüquq-mühafizə işçiləri qurbanların müdafiəsiz vəziyyətlərdən çıxarılmasını və onların təhlükəsizliklərinin təmin olunması üçün nəzarət altına alınmalarını təmin etməlidirlər. Qurbanlar onların sosial, tibbi, fiziki, psixoloji və hüquqi ehtiyaclarının təmin edilməsi və onların bərpasına yardımın göstərilməsi və bunun sürətləndirilməsi üçün müdafiəyə ehtiyac duyurlar. Bütün mərhələlərdə onlara müəyyən imkanlar yaradılmalıdır. İlk olaraq, qurbanların gigiyena ehtiyaclarına, o cümlədən onların geyim, qida və sanitar ehtiyaclarına diqqət yetirilməlidir. Tələb olunduqda, onlara psixoloji və fiziki dəstək göstərilməli və vəziyyət barədə və onlarla bağlı nələrin olacağına dair onlara davamlı şəkildə məlumat verilməlidir.

ÜST-nin məlumatlarına görə hər il 15 yaşadək 41000 uşaq öldürülməsi halına rast gəlinir. Uşaqlara qarşı zorakılığın nəticəsi olan ölüm hallarının bir çox hissəsi suda boğulma, yanıqlar, yıxılmalar hesabına yazıldığı üçün bu rəqəm problemin həqiqi miqyasını göstərmir. Həmçinin ÜST-nin məlumatlarına görə, bütün böyük əhalinin 25%-i uşaq yaşlarında zorakılığa məruz qaldıqlarını qeyd edir . Hər 5 qadından biri və hər 13 kişidən biri uşaqlıq yaşlarında seksual zorakılığa məruz qaldıqlarını qeyd edirlər. Ümumiyyətlə, uşaq hüquqlarını pozan bütün hallar zorakılıq adlandırılır. BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasına görə uşağın yaşamaq, normal inkişafı üçün zəruri həyat səviyyəsinə malik olmaq, öz baxışları və fikrini sərbəst ifadə etmək, fikir, vicdan və din azadlığı, sərbəst surətdə mədəni həyatda iştirak etmək, iqtisadi istismardan müdafiə olunmaq, təhsil almaq, lazımi məlumat əldə etmək, ədliyyə orqanlarına müraciət etmək, cinsi istismardan, suiistifadədən və etinasız münasibətlərdən müdafiə olunmaq hüquqları var. Uşaq hüquqlarının pozulmasına, o cümlədən, zorakılığa görə valideynlər, onları əvəz edənlər, ya da digər böyüklər inzibati, cinayət, ailə və ya mülki hüquqlar əsasında həm mənəvi, həm də hüquqi baxımdan məsuliyyət daşıyırlar. BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyası dünya dövlətləri tərəfindən zorakılığa qarşı aşağıdakı tədbirlərin aparılmasını tövsiyə edir:

Hər bir uşağın yaşamaq hüququ var. Uşağın sağ qalması və sağlam inkişaf etməsi maksimal dərəcədə təmin edilməlidir. Hər bir uşağın şəxsi həyatı olmasına hüququ var. Uşaq onun həyatına özbaşına və ya qanunsuz müdaxilədən, şərəf və nüfuzuna, ailəsinə və evinə qəsd edilmədən qorunmalıdır. Hər bir uşağın səhiyyənin mükəmməl xidmətlərindən istifadə etmək hüququ var. Xəstəliklərə və doyunca yeməməyə qarşı mübarizə təşkil olunmalıdır. Uşağın sağlam yaşaması üçün təmiz su, təmiz ətraf mühit təmin olunmalıdır. Hər bir uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmağa hüququ var. Uşaq cinsi istismarın bütün növlərindən qorunmalıdır. Qanunu pozan hər bir uşaq kobud rəftarın bütün növlərindən müdafiə olunmalıdır, o, böyük insanlarla bir cəza çəkmə müəssisəsində yerləşdirilməkdən və ailə üzvləri ilə münasibətdən məhrum edilməkdən qorunmalıdır. Kobud rəftar qurbanı olmuş hər bir uşağa özünə hörməti qaytarmaq üçün yardım göstərilməlidir . Zorakılığın qarşısının alınması multisektoral yanaşma tələb edir, yəni bu fəaliyyətə hüquq mühafizə sisteminin, qəyyumluq və himayə orqanlarının, sosial və pedaqoji dairələrin, tibbi və psixoloji xidmətlərin əməkdaşları cəlb edilməlidirlər.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

10 fevral

## "Barselona" yeni hücumçu axtarır



"Barselona" yeni hücumçu axtarır. İspaniya mətbuatı xəbər verir ki, bu barədə komandanın 61 yaşlı baş məşqçisi Kike Setyen məlumat verib: "Hücumçu almağı planlaşdırırıq. Alacağımız oyunçu mümkün qədər universal olmalıdır. Belə bir futbolçu tapmaq asan olmayacaq. Bir neçə variant var. Komandaya kömək edə biləcək hücumçu lazımdır". Qeyd edək ki, Kataloniya təmsilçisinin hücumçuları Luis Suares və Usman Dembele zədəlidir.

## Tez-tez qrip olanlar, bu yazını mütləq oxusun!



*Qripdən qorunmaq üçün ozon terapiyası çox faydalıdır. Ozon terapiyası immunitet sisteminin güclənməsi və germisidal təsiri ilə xəstəliyin inkişafına mane olur. Hamımız müntəzəm qidalanmaq, maye qəbulunu artırmaq, qrip əleyhinə vaksin almaq və mümkün qədər insanların çox olduğu yerlərdən uzaq durmaq kimi bir çox tədbirləri bilirik. Ancaq zaman-zaman bunlar kifayət etməyə bilər.*

Xüsusilə uşaqlar, yaşlılar, xroniki xəstəlikləri və immunitet sistemi zəif olanlarda xəstəliyin riskləri və ağırlaşmaları ciddi simptomlara səbəb ola bilər. Belə hallarda qrip kimi epidemiyalardan qorunmaq üçün ozon terapiyası ilə olduqca yaxşı nəticələr əldə etmək mümkündür.

Ozon toxuma oksigenləşməsini artırır, qan dövranını tənzimləyir. Antioksidant təsiri insanı gücləndirir.

Ozon terapiyası qırmızı qan hüceyrələrinin elastikliyini artırır, kapilyarların keçməsini sürətləndirir və oksigen çatışmazlığını aradan qaldırır. Həmçinin, dezinfeksiya və antimikrobiyal xüsusiyyətləri ilə bakteriya, virus və göbələkləri öldürür. Sürətlə böyüyən xərçəng hüceyrələrinin çoxalmasına və yayılmasına mane olur. Şiş hüceyrələrinin membranlarını qıraraq immunitet sisteminə təsir edir və şiş hüceyrələrinin çoxalmasının və yayılmasının qarşısını alır. Qaraciyər hüceyrələrini aktivləşdirərək, böyrəklərin işini tənzimləyir. Bədənimizdəki təbii ağrı kəsicilərin üzə çıxmasına kömək edir.

Ozon Terapiyası terapevtik bir metod olaraq bir çox xəstəlikdə uğurla istifadə edilir.

Sızanaq və selülitin müalicəsində uğurlu nəticələr əldə etməyə kömək olur. Saç tökülməsi, qocalma, dəri xəstəlikləri, ekzemanın səbəb olduğu dəri infeksiyalarını müalicə edir. Tər qoxularının qarşısını alır. Qan, limfa və dəri hüceyrələrinə nüfuz edən ozon sayəsində toxumaların yaxşılaşması və özünü yeniləməsi sürətlənir./teleqraf

## Koronavirusa yoluxan ərəblərin sayı yeddiyə çatdı





Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) daha iki koronavirusa yoluxma qeydə alınıb və beləliklə, Əmirliklərdə bu virusun daşıyıcılarının sayı yeddiyə çatıb. "Emirates" informasiya agentliyi xəbər verir ki, BƏƏ-nin Səhiyyə və Profilaktika Nazirliyi bununla bağlı fevralın 8-də məlumat yayıb.

Qeyd olunub ki, koronavirusa yoluxan insanlar Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun olaraq ölkəyə gələn şəxslərin müayinədən keçirilməsi zamanı aşkar ediliblər. Nazirlik bildirib ki, Çin və Filippin vətəndaşları olan xəstələr hazırda xüsusi palatada nəzarət altındadır və onlara lazımi tibbi yardım göstərilir.




## Boksçularımız beynəlxalq turnirdə 8 medal qazanıblar

Qazaxıstanın Ust-Kamenoqorsk şəhərində yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. Yarışda ev sahibləri ilə yanaşı, Azərbaycan, Özbəkistan, Monqolustan və Qırğızıstan yığmaları da qüvvələrini sınayıblar. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, turnirə baş məşqçi Vaqif Kazımovun rəhbərliyi altında 12 boksçu ilə qatılan milli komandamız 3 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb.

Yığmamızın heyətində Kamil Babayev (52 kq), Zaur Qəhrəmanov (57 kq) və Murad Məhərrəmov (75 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Finalda məğlub olan Tural Sarıyev (50 kq) isə ikinci yeri tutub. Digər boksçularımız - Elgün Babayev (48 kq), Taci Tağızadə (57 kq), Rza Rzazadə (70 kq) və Nicat Qurbanov (66 kq) bürünc medalla kifayətləniblər.

## Bərdədə yol qəzası olub, bir qadın ölüb



Bərdədə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bərdə rayonunun Alpoud kəndinin ərazisində rayon sakini R.Qasımovun və Mingəçevir şəhər sakini N.Fərəcovun idarə etdikləri "VAZ" markalı iki avtomobil toqquşub. Nəticədə xəsarətlə xəstəxanaya yerləşdirilmiş R.Qasımovun avtomobilində olan sərnişin, həmyerlisi Adilə Əzizova orada ölüb. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## Türkiyədə təhlükəli terrorçu məhv edilib

Türkiyənin təhlükəsizlik qüvvələrinin ölkə daxilində həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində PKK/KCK terror təşkilatının təhlükəli üzvlərindən olan Ömər Oran zərərsizləşdirilib. AZƏRTAC xəbər verir ki, Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olan "Bager" ləqəbli terrorçunun yaxalanması üçün 500 min lirə (təxminən 85 min ABŞ dolları) məbləğində mükafat nəzərdə tutulub. O, Ərzurum bölgəsində keçirilən antiterror əməliyyatında məhv edilib. Terrorçu zərərsizləşdirilən zaman silahlı olub.




## Məşhur serialın aktyorları sevgili oldu




Tanınmış aktyor Engin Akyürek öz yarını tapıb. Türkiyə mətbuatı xəbər verir ki, daha öncə adı Cansu Dere və Bestemsu Özdemirlə hallanan kino ulduzu "Sefirin kızı" serialında birlikdə çəkildiyi tərəf müqabili Tülin Yazkanla görüşməyə başlayıb. Cütlüyü Taksim küçələrində əl-ələ tutub gəzərkən görənlər olub. Qeyd edək ki, Engin Akyürekin 38, Tülin Yazkanın isə 29 yaşı var.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600